1 fevral 2019 №9 (1594)
www.medeniyyet.az
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsinə həsr olunmuş müşavirə

Yanvarın 30-da nazir Əbülfəs Qarayevin sədrliyi ilə Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsinə həsr olunmuş geniş müşavirə keçirildi.

Tədbirdə nazirliyin struktur bölmələrinin, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin, Bakı şəhəri və regional mədəniyyət idarələrinin, muzey və mərkəzi kitabxanaların rəhbərləri iştirak edirdi.

Müşavirədə çıxış edən Əbülfəs Qarayev Prezident İlham Əliyevin yanvarın 15-də imzaladığı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanın ölkəmizdə mədəniyyət sahəsinin müasir tələbələrə uyğun inkişafının təmin edilməsi baxımından müstəsna əhəmiyyətini qeyd etdi. Vurğuladı ki, fərman mədəniyyət sahəsində müasir sistemin qurulmasını, mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsini, mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılmasını nəzərdə tutur.

Mədəniyyət Nazirliyində həyata keçirilən islahatların uğurla davam etdirildiyini deyən nazir bildirdi ki, Prezident İlham Əliyevin 2016-cı il martın 29-da imzaladığı sərəncama uyğun olaraq 2017-ci ildən nazirliyin Bakı şəhəri üzrə baş idarəsi və 15 regional mədəniyyət idarəsi fəaliyyət göstərir. Ölkə başçısının "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il iyunun 6-da imzaladığı fərmana uyğun olaraq Mədəniyyət Nazirliyinin strukturu yenidən formalaşdırılıb.

*davamı səh. 2-də*

## Dünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilində BMT ilə əməkdaşlıq müzakirə edilib

Mədəniyyət naziri Əbülfəs Qarayev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai ilə görüşüb. Görüşdə Azərbaycan-BMT əlaqələri, mədəniyyət sahəsində həyata keçirilən əməkdaşlıq məsələləri müzakirə edilib.

Əbülfəs Qarayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən "Bakı Prosesi" çərçivəsində iki ildən bir təşkil edilən Dünya Mədəniyyətlərarası Dialoq Forumunun BMT televiziyası vasitəsilə canlı yayımının təşkilində dəstəyə görə minnətdarlığını bildirib. Nazir, həmçinin BMT-nin baş katibi Antonio Quterreşin məruzəsində 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi"nin mədəniyyətlərarası dialoqun dəstəklənməsinə yönəlmiş səylər çərçivəsində mühüm yer tutmasının xüsusi qeyd edildiyini diqqətə çatdırıb.

Bu il 2-3 may tarixində Bakıda 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyini bildirən Əbülfəs Qarayev bu mötəbər tədbirin təşkilində BMT ilə fəal əməkdaşlıq təcrübəsi olduğunu qeyd edib.

Qulam İsakzai öz növbəsində 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıq prosesinə yaxından cəlb olunmaq niyyətini bildirərək bu istiqamətdə görüşlərin keçirilməsini təklif edib.

# "Həpsi rəngdir"

### Görkəmli şair Səməd Mənsurun 140 illiyinə həsr edilmiş ədəbi-bədii tədbir keçirildi



Yanvarın 31-də paytaxtın Sabunçu rayonunun Əmircan qəsəbəsindəki Mədəniyyət evində Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə görkəmli şair Səməd Mənsurun (1879-1927) 140 illiyinə həsr olunmuş "Həpsi rəngdir" adlı ədəbi-bədii tədbir keçirildi.

Tədbirdə Azərbaycan Milli Kitabxanasının nəşr etdirdiyi "Səməd Mənsur. Biblioqrafiya", Yadigar Əsgərovanın "Səməd Mənsur. Həyatı və yaradıcılığı" və akademik Nizami Cəfərovun Türkiyədə çap olunan "Samed Mansurun şiiri" kitablarının təqdimatı da oldu.

Mərasimdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazirin birinci müavini Vaqif Əliyev, Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, mədəniyyət, ədəbiyyat və ictimaiyyət nümayəndələri iştirak edirdi.

Tədbir iştirakçıları əvvəlcə Mədəniyyət evinin foyesində "Səməd Mənsur 140" başlığı altında təşkil olunmuş kitab sərgisinə və şairlə bağlı eksponatların sərgisinə baxdılar.

Tədbirin aparıcısı – Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Səməd Mənsurun həyat və yaradıcılığı haqqında geniş məlumat verdi. Bildirdi ki, Səməd Hacı Əhməd oğlu Kazımov Bakının Əmircan qəsəbəsində doğulub. Rus-müsəlman məktəbində təhsil alıb, rus, ərəb və fars dillərini mükəmməl öyrənib. "Mənsur", "Səməd Mənsur" təxəllüsləri ilə şeirlər yazıb.

*davamı səh. 2-də*

## Dostluq və əməkdaşlığa kino töhfəsi



Xəbər verdiyimiz kimi, yanvarın 25-dən 30-dək Bakıda İtaliya-Azərbaycan Beynəlxalq film festivalı təşkil olunmuşdu.

Festivalda italyan filmləri ilə yanaşı, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan ekran əsərləri – Şamil Əliyevin "Çölçü", Mirbala Səlimlinin "Qırmızı bağ", Elçin Musaoğlunun "Nabat", həmçinin "Azərbaycanfilm"in "Butafilm" kinoşirkəti ilə birgə çəkdiyi "Nar bağı" filmləri nümayiş olundu.

Yanvarın 30-da Nizami Kino Mərkəzində festivalın bağlanışı və qalib ekran əsərlərinin mükafatlandırma mərasimi keçirildi. Mərasimdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, İtaliya və Azərbaycan kinematoqrafçıları, kinosevərlər iştirak edirdi.

Tədbirdə ilk dəfə təşkil olunan festival barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, İtaliyanın "İmago Group", "United Cultures" və "Sandro Teti Editore" şirkətlərinin birgə dəstəyi ilə reallaşan festival İtaliya və Azərbaycanın kino sənayesinin keçmişi, bu günü və gələcəyini təbliğ etmək məqsədi daşıyır. Festival iki ölkənin film sənayesinin oxşar və fərqli cəhətlərini nümayiş etdirməklə beynəlxalq kino məkanının fəaliyyətini təşviq edir.

*davamı səh. 3-də*

## Azərbaycan tarixşünaslığında məktəb yaradan alim



Yanvarın 30-da Milli Kitabxanada AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, Əməkdar elm xadimi, akademik Yaqub Mahmudovun 15 cildlik "Seçilmiş əsərləri" və "Yaqub Mahmudov. Biblioqrafiya" kitablarının təqdimatı keçirildi. Tədbir Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşdı.

Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq müasir Azərbaycan tarixşünaslığının görkəmli nümayəndəsi, akademik Yaqub Mahmudovu tələbəlik illərindən tanıdığını, onun necə qayğıkeş, vətənsevər bir alim olduğu dedi. Bildirdi ki, alimin zəngin yaradıcılığını əks etdirən, uzun illərin bəhrəsi olan və 15 cilddə nəşr edilən "Seçilmiş əsərləri" tarix elminə böyük töhfədir. Bu kitablar gələcək nəsillərin, gənc tarixçilərin, tədqiqatçıların istinad edəcəkləri mühüm mənbəyə çevriləcək.

Qeyd olundu ki, "Yaqub Mahmudov. Biblioqrafiya" kitabında alimin elmi fəaliyyətə başladığı gündən 2018-ci ilə qədər işıq üzü görmüş əsərləri – monoqrafiya və kitabları, dərslikləri, məqalələri, çıxışları, müsahibələri və digər materiallar yer alıb.

*davamı səh. 4-də*



## Musiqili filmlərimiz – səhnədən ekrana

Ta qədimdən sənət biliciləri əmindirlər: klassik əsərlərin bütün dövrlərdə öz ifaçısı və öz tamaşaçısı olmalıdır. Həqiqətən, klassik əsər ona görə klassik sayılır ki, bütün nəsillər ona maraq göstərir, onu oxuyur, ifa edir və s. Daha çox teatra xas olan bu cəhətə kinematoqrafda da rast gəlmək olur. Dünya kino tarixində bir neçə dəfə ekranlaşdırılmış onlarla film göstərmək olar.

Musiqili əsərlərin ekran həyatından danışası olsaq, İmre Kalmanın, Yohann Ştrausun, İsaak Dunayevskinin operettaları dünya üzrə siyahıda ilk yerləri tutmuş olar. Bu xüsusda bizim də deməyə sözümüz, göstərməyə filmimiz var: 1945-ci ilin məşhur ekran əsərindən 20 il sonra rejissor Tofiq Tağızadənin ekranlaşdırdığı ikinci "Arşın mal alan" filmi...

*səh. 7*

## Gənclər gününün rəngarəng mədəni proqramı

2 fevral – Gənclər günü münasibətilə ölkəmizdə hər il çoxsaylı mədəni tədbirlər, incəsənət layihələri həyata keçirilir.

Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunan "Gəncliyin səsi" festivalı da artıq ənənə halını alıb. Layihə gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq axtarışlarının, nailiyyətlərinin dəstəklənməsi məqsədi daşıyır. 2016-cı ildən etibarən festival Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN Xidmət") ilə birlikdə keçirilir.

Ölkə başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq Mədəniyyət Nazirliyi və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə təşkil olunan növbəti festival fevralın 1-dən 5-dək davam edəcək.

"Gəncliyin səsi" festivalının açılış mərasimi fevralın 1-də Beynəlxalq Muğam Mərkəzində olacaq. Mərasimdə istedadlı gənclərə mükafatlar da təqdim olunacaq.

Festivalın tədbirləri "ASAN Könüllüləri" Təşkilatı ilə birlikdə Bakı və Sumqayıt şəhərlərində, Abşeron, Quba, İmişli və Masallı rayonlarında keçiriləcək.

*davamı səh. 2-də*

## Fevral ayının "Afişa"sı - teatr və kinodan konsert və sərgilərədək...

İlin ikinci ayı paytaxtın mədəniyyət ocaqlarında, sənət məkanlarında müxtəlif tədbirlər, layihələr sarıdan zəngindir.

Ay ərzində teatrlarda nümayiş olunan tamaşalardan, kino zallarında göstərilən filmlərdən hansılarını vaxt ayırıb izləyə bilərsiniz? Yaxud konsert salonlarındakı musiqi axşamlarına, qalereya və incəsənət mərkəzlərindəki sərgi və təqdimatlara nə zaman getmək imkanınız var? "Mədəniyyət" qəzetinin aylıq "Afişa" əlavəsi Bakı sakinlərinə, şəhərin qonaqlarına bu seçimdə bələdçilik edə bilər.

*davamı səh. 5-də*

### Tələbələr "Fiqaronun toyu"nda



*səh. 4*

### Bakıda Beynəlxalq Memarlıq Forumu və IV Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək

*səh. 2*




### Bursada Azərbaycan Cümhuriyyəti şöləni

*səh. 8*

№9 (1594)
1 fevral 2019
www.medeniyyet.az

# Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsinə həsr olunmuş müşavirə

*əvvəli səh. 1-də*

Qeyd olundu ki, dövlət başçısının nazirliklə bağlı son fərmanı həyata keçirilən islahatların davamıdır. Fərmana əsasən, Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün komissiya yaradılıb.

Nazir bildirdi ki, fərmandan irəli gələn məsələlərin həlli üçün nazirliyin daxili əmri ilə müvafiq işçi qrupları təşkil edilib. İşçi qruplarına fərmanın müvafiq bəndlərinə uyğun olaraq informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sisteminin yenidən qurulması, dövlət mülkiyyətində olan muzeylərin inventarizasiyasının aparılması, fəaliyyətinin optimallaşdırılması və daha təkmil muzey fəaliyyətinin təşkili, nazirliyin tabeliyindəki musiqi məktəblərinin inventarizasiyasının aparılması, fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə inzibati





ərazi vahidləri üzrə daha kompakt təşkili, mədəniyyət mərkəzlərinin, mədəniyyət evlərinin və klubların, rəsm qalereyalarının inventarizasiyasının aparılması, fəaliyyətinin təkmilləşdirilməsi, mövcud tələbat nəzərə alınmaqla, ölkənin inzibati ərazi vahidləri üzrə daha kompakt təşkili və xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

Vurğulandı ki, Fərmana uyğun olaraq, Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin ləğvinin təmin edilməsi, nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı işlər də həyata keçiriləcək.

Əbülfəs Qarayev bildirdi ki, fərmana əsasən, ləğv olunan qurumların işçilərinin nazirliyin tabeliyində olan digər qurumlarda müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görüləcək.

Qeyd olundu ki, həyata keçirilən islahatlar zamanı beynəlxalq təcrübədən istifadə olunması istiqamətində də zəruri addımlar atılacaq: "Bu məsələ fərmanda da öz əksini tapıb. Biz xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq olunması istiqamətində Avropa İttifaqının Tvinninq layihəsini həyata keçirmişik. Qarşımızda duran əsas məsələlərdən biri də hazırda qabaqcıl beynəlxalq təcrübəni öyrənib ölkəmizdə tətbiqini davam etdirməkdir".

Nazir onu da vurğuladı ki, aparılan islahatlar nəticəsində ölkəmizin mədəniyyət sahəsinin idarə olunması, mədəni xidmətlərin səviyyəsinin daha da artırılması və mədəni irsimizin təbliği istiqamətində yeni uğurlara nail olunacaq. Mədəniyyət Nazirliyi bu il də ölkəmizdə keçiriləcək bir sıra nüfuzlu beynəlxalq tədbirlərin təşkilatçısı kimi çıxış edəcək. Bu tədbirlərin yüksək səviyyədə təşkili və ümumilikdə ölkəmizdə dövrün və zamanın tələblərinə cavab verən effektli mədəniyyət siyasətinin həyata keçirilməsi üçün Prezident İlham Əliyevin yanvarın 15-də imzaladığı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman mədəniyyət sahəsində çalışan bütün əməkdaşların üzərinə böyük məsuliyyət qoyur.

Əbülfəs Qarayev sonda mədəniyyət sahəsində islahatların uğurla həyata keçirilməsi istiqamətində tapşırıq və tövsiyələrini verdi.

# "Həpsi rəngdir"

## Görkəmli şair Səməd Mənsurun 140 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirildi

*əvvəli səh. 1-də*

Xalq yazıçısı Anar görkəmli ədibin Azərbaycan ədəbiyyatına bəxş etdiyi əsərlərin əhəmiyyətindən danışdı: "Səməd Mənsur ədəbiyyatımızın ən böyük simalarından biridir. Şairin yaradıcılığı vasitəsilə nə qədər böyük sima olduğunu dərk edirik. Onun şairlik








fəaliyyəti satirik və lirik istiqamətdə olub. Şair klassik şeirlərlə yanaşı, əsasən satirik əsərlər yazıb, ictimai bəlaları tənqid edib".

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli vurğuladı ki, Səməd Mənsur yaradıcılığı ilə ədəbiyyatımızın görkəmli simalarındadır. Sənətkar yaşadığı mühitdə riyakarlar, məsləksizlər arasında sanki üsyan qaldırırdı. Həyatının bir dönəmi XX əsrin mürəkkəb ictimai-siyasi prosesləri dövrünə düşən şair haqsızlıqlarla heç zaman barışmayıb. Milli azadlıq, milli mənlik, ana dili məsələləri Səməd Mənsur yaradıcılığının ana xəttini təşkil edir.

Qeyd edildi ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra görkəmli maarifçi, şair və publisist Səməd Mənsurun da xatirəsinin əbədiləşdirilməsi istiqamətində xeyli işlər görülüb. Yaradıcılığı haqqında tədqiqat əsərləri çap edilib.

Filologiya elmləri doktoru Şirindil Alışanlı Səməd Mənsurun həyat və fəaliyyətinə nəzər salaraq vurğuladı ki, sovet dövründə onun yaradıcılığı bir qədər kölgədə qalıb. Əsərlərinin çap olunmasına icazə verilməyib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Səməd Mənsurun yaradıcılığı haqqında Xalq yazıçısı Anarın, akademik Nizami Cəfərovun, tədqiqatçı alim Yadigar Əsgərovanın məqalələri, kitabları işıq üzü gördü. Bundan sonra daha geniş ictimaiyyət görkəmli şairi tanımağa başladı.

Tədbirdə Səməd Mənsurun şeirləri səsləndirildi, incəsənət ustalarının ifasında ədəbi-bədii kompozisiya təqdim edildi, şairin sözlərinə bəstələnmiş mahnılar ifa olundu.

**FARİZ**

# Bakıda Beynəlxalq Memarlıq Forumu və IV Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək

Son illər ölkə rəhbərliyinin apardığı uğurlu siyasət nəticəsində həyata keçirilən quruculuq və abadlıq işləri, xüsusən Bakı şəhərində tikilən yeni infrastruktur layihələri Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə zəmin yaradıb.

Həmçinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə bir sıra beynəlxalq tədbirlər keçirilib və Azərbaycanın mədəniyyəti, mədəni irs nümunələri, multikultural dəyərləri, mədəniyyətlərarası dialoq modelləri geniş təbliğ edilib.

Görülən işlərin davamı olaraq, Mədəniyyət Nazirliyi və Azərbaycan Memarlar İttifaqının dəstəyi, Beynəlxalq Memarlar İttifaqının iştirakı ilə 2019-cu ilin 7-11 iyun tarixində Bakı şəhərində "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda Beynəlxalq Memarlıq Forumu və "Mədəni irs şəhərləri və turizm çağırışları" adlı IV Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək.

Forum çərçivəsində tarixi şəhərlərdə kütləvi turizm nəticəsində baş verə biləcək problemlərin həlli yolları müzakirə ediləcək, tarixi şəhərlər və turistlər arasında ahəngə nail olmaq üçün memarların, eləcə də səlahiyyətli şəxslərin müzakirə dialoqu yaradılacaq.

Artıq 4-cü dəfə keçirilən Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin əsas məqsədi mükəmməl layihələndirmə və məsuliyyətli planlaşdırma metodlarını, mədəni irs yerlərində və tarixi əhəmiyyətə malik məkanlarda turizmin inkişafını əks etdirən layihələri (təklif olunan və həyata keçirilən) tanıtmaqdır. Bu, tarixi əhəmiyyətli yerlərin və obyektlərin təfsir edilməsi üçün yeni imkanlar yarada, eləcə də mövcud binaların turizm məqsədləri üçün uyğun şəkildə yenidən istifadəsinə yol aça bilər.

Qeyd edək ki, tədbirin əsas operatoru olan Bakı Media Mərkəzi tərəfindən forumun saytı (www.uia2019baku.org) artıq işə başlayıb və iştirak etmək üçün qeydiyyat sayt vasitəsilə həyata keçirilir.

# "Müasir gəncliyin sənət dünyası"

Azərbaycan Xalça Muzeyində muzeyin tarixinə və fəaliyyətinin ictimaiyyətə təqdimatına, həmçinin Gənclər gününə həsr edilmiş "Müasir gəncliyin sənət dünyası" adlı tədbir keçirilib. Tədbir Azərbaycan Xalça Muzeyi və YAP Səbail rayon təşkilatının birgə layihəsi əsasında təşkil olunub.

Muzeyin direktoru, İCOM Azərbaycan Milli Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova qonaqları salamlayaraq "Azərbaycan Xalça Muzeyinin yaranma tarixi və fəaliyyətinin ictimaiyyətə təqdimatı" mövzusunda çıxış edib.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı barədə məlumat verib, partiyanın inkişafında gənclərin rolunu yüksək qiymətləndirib.

Çıxışlardan sonra nümayiş olunan gənclər tərəfindən hazırlanmış musiqili-bədii proqram maraqla qarşılanıb.

Tədbir çərçivəsində Xalça Muzeyində gənc istedadların əsərlərindən ibarət sərgi açılıb.

# Gənclər gününün rəngarəng mədəni proqramı

*əvvəli səh. 1-də*

Festivalda mədəniyyətin müxtəlif sahələri üzrə peşəkar və həvəskar gənclərin iştirakı ilə konsertlərin, görüşlərin, foto və rəsm sərgilərinin, tamaşa və film nümayişlərinin təşkili nəzərdə tutulur.

Festival çərçivəsində 1 fevral tarixində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində gənc musiqiçilərin konserti, 2 fevralda Sumqayıt Dövlət Dram Teatrında "ASAN Könüllüləri"nin iştirakı ilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası təqdim olunacaq. Abşeron rayon Xırdalan şəhər Heydər Əliyev Mərkəzində Prezident təqaüdçülərinin konserti, Quba regional "ASAN Həyat" kompleksində gənc rejissorlarla görüş və onların filmlərinin nümayişi, gənclərin fotosərgisi olacaq.

4 fevral tarixində Masallı və İmişli regional "ASAN Həyat" komplekslərində də film və tamaşa nümayişi, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında gənc yazarlarla görüş, 5 fevralda Azərbaycan Dövlət Musiqili Teatrında "ASAN Könüllüləri"nin təqdimatında C.Cabbarlının "Vəfalı Səriyyə" tamaşasının premyerası nəzərdə tutulub.

Bundan əlavə, gənc nəslin mənəvi-bədii zövqünün formalaşması, onların dünyagörüşünün genişlənməsini təmin etmək məqsədilə 1-3 fevral tarixində Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Akademik Filarmoniyası və Azərbaycan Bəstəkarlar İttifaqının birgə layihəsi olan "Gəncliyə töhfə" musiqi festivalı keçiriləcək.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə bu layihə barədə fikirlərini bölüşərək bildirdi ki, "Gəncliyə töhfə" festivalı çərçivəsində fevralın 1-də Vyana Konservatoriyasının məzunu, Azərbaycan Dövlət Akademik Filarmoniyasının dirijoru Mustafa Mehmandarovun rəhbərliyi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, fevralın 2-də Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və fevralın 3-də filarmoniyanın Kamera və orqan musiqisi zalında gənc istedadların iştirakı ilə konsertlərin keçirilməsi nəzərdə tutulub.

Konsertlərdə gənc bəstəkarların əsərləri səslənəcək. Konsertin simfonik musiqi hissəsi Bəstəkarlar İttifaqının gənc bəstəkarlara dəstəyi ilə hazırlanıb: "Bu festival nazirlik və ittifaqın gənc bəstəkarların əsərlərinə baxışı xarakteri daşıyır. Çalışırıq ki, festival çərçivəsində gənc bəstəkarların əsərləri səslənsin. Onlar bu zaman öz qüsurlarını bizdən deyil, əsərlərini zaldan dinləyərək dərk etsinlər ki, bu, çox vacib məsələdir. Filarmoniya səhnəsindən əsəri səslənən gənc bəstəkar daha çox məsuliyyət daşıyır, eyni zamanda bu onun inkişafına, yaradıcılığında yeni cəhətləri təyin etməsinə də təkan verir".

**LALƏ**

# Televiziya muğam müsabiqəsinin seçim turu





Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin birgə layihəsi olan VII Televiziya Muğam Müsabiqəsinin seçim turu keçirilib.

Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən müsabiqənin münsiflər heyətinə xalq artistləri Mənsum İbrahimov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalının direktor müavini, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli daxildir.

Seçim turunda Gəncə şəhərinin uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri, Gəncə Musiqi Kollecinin tələbələri, Mingəçevir şəhəri, Xocalı, Kəlbəcər, Göygöl, Ağdam, Şəmkir, Tovuz rayonlarından 30-dan çox muğam ifaçısı iştirak edib.

Münsiflər heyətinin qərarına əsasən, Gəncə şəhəri, Ağdam, Xocalı, Göygöl, Şəmkir rayonlarından 7 ifaçı Bakı şəhərində keçiriləcək birinci turda iştirak etmək haqqı qazanıb.

# Birgə layihələr qarşılıqlı mədəni mübadilə üçün şərait yaradır

## Mədəniyyət Nazirliyində İtaliyadan gələn nümayəndə heyəti ilə görüş

Mədəniyyət naziri Əbülfəs Qarayev yanvarın 30-da paytaxtımızda keçirilən İtaliya-Azərbaycan Beynəlxalq film festivalının sədri, italiyalı aktyor Rimo Gironenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın gələcək perspektivlərindən danışaraq, ilk dəfə keçirilən festivalın kinematoqrafiya sahəsində əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyini və bu kimi tədbirlərin qarşılıqlı mədəni mübadilə üçün şərait yaratdığını deyib.

Görüşdə Mədəniyyət Nazirliyi və İtaliyanın "İmago Group", "United Cultures" film istehsalı şirkətlərinin və "Sandro Teti" nəşriyyat evinin birgə dəstəyi ilə keçirilən festivalın İtaliya və Azərbaycan kino sənayesinin təbliğ və inkişaf etdirilməsinə xidmət etdiyi qeyd edilib. Həmçinin görüşdə ölkələr arasında yeni layihələrin həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb və əlaqələrin daha da dərinləşdirilməsi üçün bir sıra işlərin görülməsinin vacibliyi vurğulanıb.



Nəşriyyat evinin təsisçisi Sandro Teti səmimi qəbula görə nazir Əbülfəs Qarayevə təşəkkürünü bildirib, Azərbaycan ilə mədəniyyət sahəsində əməkdaşlığın bundan sonra da inkişafına inamını ifadə edib.

Nazir festivalın keçirilməsində göstərdiyi dəstəyə görə İtaliya hökumətinə minnətdarlığını bildirib.

# Dostluq və əməkdaşlığa kino töhfəsi

## İlk dəfə keçirilən İtaliya-Azərbaycan Beynəlxalq film festivalı başa çatdı





*əvvəli səh. 1-də*

İtaliyanın Azərbaycandakı səfirliyi, Nizami Kino Mərkəzi və "The Landmark" tərəfindən dəstəklənən festival çərçivəsində hər iki ölkənin mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən seçilmiş 15 müasir film bir neçə seansda nümayiş olunub.

Sonra festivalın qalibləri elan olundu.

Qaliblərin mükafatlandırılması zamanı mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxış edərək ilk dəfə təşkil edilən İtaliya-Azərbaycan film festivalını yüksək dəyərləndirdi. O, festivalın hər iki ölkənin kino sahəsində çalışan mütəxəssisləri üçün faydalı olacağını və gələcəkdə bu əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu ifadə etdi, festivalın qaliblərinə yeni uğurlar arzuladı.

Müvafiq nominasiyalar üzrə qalib filmlərə, kinematoqrafçılara mükafatlar təqdim olundu. Mükafatları münsiflərlə yanaşı, mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, əməkdar incəsənət xadimləri - "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov və kinoşünas Ayaz Salayev təqdim etdi.



Mükafatlandırma mərasimində iştirak edə bilməyən qaliblər Nizami Kino Mərkəzinin səhnəsində quraşdırılan monitordan canlı bağlantı ilə festivalın təşkilatçılarına və münsiflər heyətinə təşəkkürlərini bildirdilər.

"Ən yaxşı Azərbaycan filmi" nominasiyasında "Nabat" (rejissor Elçin Musaoğlu) və "Ən yaxşı İtaliya filmi" nominasiyasında "L Assaluto Presente" (rejissor Fabio Martina) qalib elan edildi.

"The Bra" filmi (alman rejissor Veit Helmer) "Ən yaxşı beynəlxalq film" nominasiyasında mükafat aldı. "Ən yaxşı beynəlxalq sənədli film" isə "The Orphanage" (rejissor Matthieu Haag, Fransa) oldu.

"Appenino" (rejissor Emiliano Dante) "Ən yaxşı sənədli italyan filmi", "Çövkən" (rejissor Rafiq Quliyev) "Ən yaxşı Azərbaycan sənədli filmi" nominasiyalarında mükafata layiq görüldü.

Festivalın "Ən yaxşı aktyor" nominasiyanın qalibi "Mən də gəlirəm" filmində rol alan aktyor Gabriele Dentoni (İtaliya) oldu. Con Helberg isə "Mousse" filminə (İtaliya) görə "Ən yaxşı rejissor" elan edildi.

"Ən yaxşı operator" nominasiyasında Maksim Drozdov ("Qırmızı bağ" filmi – Azərbaycan) mükafatlandırıldı. "Ən yaxşı film musiqisi" üzrə qalib isə Firudin Allahverdi ("Nar bağı") oldu.

Qaliblərə "Zoroaster award" mükafatı təqdim edildi. Xüsusi "Birlik və sosial həmrəylik" mükafatı isə "Figliodi" filminə görə italyan rejissorlar Filippo Gori və Andrea Vannaçiyə verildi.

Sonda festivalın prezidenti Remo Girone kino bayramının uğurla reallaşmasında əməyi olan bütün təşkilatlara təşəkkürünü bildirdi. Festivalı dostluq və əməkdaşlıq bayramı adlandıran aktyor ölkəmizə və Azərbaycan kinosuna uğurlar arzuladı.

**Lalə AZƏRİ**

### Festival çərçivəsində ustad dərsi

İtaliya-Azərbaycan Beynəlxalq film festivalı çərçivəsində "The Landmark"da ustad dərsi keçirilib. Tədbir Venesiyanın Ca Foscari Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dəstəyi ilə təşkil edilib.

Festivalın prezidenti, tanınmış aktyor Remo Girone, bədii direktoru, rejissor Klaudio Rossi Massimi, "İmago Group" film istehsalı şirkətinin rəhbəri Lucia Macale və aktyor Viktoriya Zinni iştirakçılara İtaliya kinematoqrafiyası barədə danışıblar. Həmçinin Ca Foscari Universitetinin kinematoqrafiya fəaliyyətinin müxtəlif aspektləri müzakirə olunub.

Sonra Ca Foscari Universiteti tələbələrinin hazırladığı qısa filmlər nümayiş edilib.

# Mədəniyyət naziri Tovuz şəhərində vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev tərəfindən fevralın 8-də saat 11:00-da Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində Ağstafa, Qazax, Tovuz, Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar nazirliyin mct@mct.gov.az elektron poçt ünvanı, e-services.mct.gov.az elektron xidmətlər saytı, telefon məlumat sistemi (çağrı mərkəzi: 147), (012) 493-92-17 (əlaqələndirici şəxs: Pərviz İsgəndərli - Regional siyasət şöbəsinin müdiri) və (012) 493-55-21 nömrəli telefonlar vasitəsilə qəbula yazıla bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşların həmçinin aşağıda qeyd olunmuş əlaqələndirici şəxslərə müraciət etmələri xahiş olunur.

| Sıra №-si | Şəhər (rayon) | Əlaqələndirici şəxs | Əlaqə telefonu |
|---|---|---|---|
| 1. | Tovuz rayonu | Adil Həsənov | (022) 315-35-44<br>(070) 247-40-98 |
| 2. | Ağstafa rayonu | Gülgün Kərimov | (022) 225-39-74<br>(050) 365-90-40 |
| 3. | Qazax rayonu | Valeh Vəliyev | (022) 295-16-71<br>(050) 202-70-30 |
| 4. | Şəmkir rayonu | Vüqar Qurbanov | (022) 305-32-46<br>(050) 224-33-38 |
| 5. | Daşkəsən rayonu | İsax Məmmədov | (022) 215-52-81<br>(050) 524-48-88 |
| 6. | Gədəbəy rayonu | Elmira Hacıyeva | (022) 326-48-98<br>(050) 322-94-31 |
| 7. | Göygöl rayonu | Şərqiyyə Hümbətova | (022) 205-21-09<br>(050) 544-01-14 |

# Milli Kitabxanada yubiley sərgiləri

Yanvarın 31-də Milli Kitabxanada ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucu rəhbəri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 135 illiyi münasibətilə geniş kitab sərgisi açılıb.



Sərgidə Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan və xarici dillərdə nəşr olunmuş əsərləri, haqqında yazılmış kitablar, dövri mətbuat materialları nümayiş olunub.

Kitabxanada həmçinin Əməkdar incəsənət xadimi, şair Əli Tudənin (Əli Qulu oğlu Cavadzadə) anadan olmasının 95 illiyi münasibətilə kitab sərgisi təşkil edilib.

Sərgidə şairin Azərbaycan və digər dillərdə nəşr olunmuş əsərləri, haqqında yazılmış kitablar, dövri mətbuat materialları yer alıb.

# Beynəlxalq müsabiqədə ikinci yer

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 24 nömrəli 11 illik Musiqi məktəbinin fortepiano ixtisası üzrə şagirdi Rəhiməxanım Nəbiyeva Türkiyədə keçirilən "Caspi Art" beynəlxalq sənət müsabiqəsində iştirak edib.

İdarədən bildirilib ki, müsabiqədə uğurla çıxış edən Rəhiməxanım Nəbiyeva ikinci yerə layiq görülərək diplomla mükafatlandırılıb.

# Gürcüstanın xor kollektivi Bakıda çıxış edəcək

Fevralın 6-da Batumi Gənclər Musiqi Teatrı və "Nota" kvarteti Bakıda konsert proqramı ilə çıxış edəcək.

Konsert M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası və Batumi şəhəri Dövlət Musiqi Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşacaq. Filarmoniyada Gürcüstanın tanınmış xor kollektivləri maraqlı proqram təqdim edəcək.

# Gənclər gününə həsr olunmuş dəyirmi masa

Sabirabad rayon Mədəniyyət Mərkəzində "Azərbaycan gəncliyi: gənclik və tərəqqi" mövzusunda dəyirmi masa keçirilib.

Gənclər günü münasibətilə təşkil olunan tədbirdə Sabirabad Regional Mədəniyyət İdarəsinin məsləhətçiləri Aynur İsmayılova, Ağalar Ağammədov, Sabirabad rayon Mədəniyyət Mərkəzinin direktoru Mirtaleh Ağazadə, rayon Tarix-diyarşünaslıq muzeyinin direktoru Şükufə Əsgərova və fəal gənclər çıxış edərək ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətindən söz açıblar.

# "Bakıda modern üslubun tarixi"

## Paytaxtımızın memarlığı ilə bağlı alman tədqiqatçının məruzəsi dinlənilib

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində alman publisist-tərcüməçi Hayke Maria Yohenninqin təqdimatında "Bakıda modern (gənclik) üslubun tarixi" adlı məruzə axşamı təşkil olunub.

Yanvarın 30-da keçirilən tədbiri mərkəzin rəhbəri Leyla Qasımova açaraq bildirib ki, elmi ədəbiyyatda modernizm və ya yeni sənət adları ilə tanınan üslub Bakı şəhəri memarlığında geniş yayılıb. H.M.Yohenninqin "Bakının memarlıq bələdçisi" kitabında bu üslubda tikilmiş memarlıq abidələrinə geniş yer ayrılıb. Eyni zamanda, Avropada bu üslubun ən uğurlu nümunələrinin Vyanada yaranması və bu şəhərin memarlıq tarixində xüsusi yerə malik olması bu məruzənin vyanalı sənətsevərlər üçün maraqlı olacağını düşünməyə əsas verir.

Məruzə zamanı H.M.Yohenninq bildirib ki, indiyədək bir neçə şəhər haqqında memarlıq bələdçisi yazıb. Azərbaycan paytaxtının memarlıq abidələrinə marağı onu "Bakının memarlıq bələdçisi" kitabını qələmə almağa həvəsləndirib. Ölkəmizə dəfələrlə etdiyi səfərlər, arxivlərlə iş, mütəxəssislərlə əməkdaşlıq və şəxsi araşdırmalar nəticəsində ərsəyə gələn kitabda Bakının mühüm memarlıq abidələri haqqında məlumatlar alman dilində oxuculara təqdim edilir. Kitab ötən il Berlindəki "DOM Publishers" nəşriyyatında çap olunub. Oktyabrda isə Frankfurt Beynəlxalq kitab yarmarkasında ölkəmizin stendində nəşrin təqdimatı keçirilib.

Məruzədə mövzuya uyğun olaraq əsas diqqət Bakı memarlığının ən rəngarəng dövrü olan XIX əsrin sonu və XX əsrin əvvəllərinə yönəldilib. Qeyd edilib ki, neft bumu nəticəsində böyük gəlir əldə edən neft milyonçuları Avropa nümunəsi əsasında həmin dövrün peşəkar memarlarına dəbdəbəli imarətlər və digər binalar inşa etdirirdilər. Gül və həndəsi naxışlar, eləcə də Quran ayələrindən əlavə bəzək elementlərinin istifadə edilmədiyi İslam memarlıq abidələri ilə yanaşı, həmin dövrdə Bakıda Avropa memarlarının müxtəlif üslublarda inşa etdiyi tikililər meydana gəlməyə başladı. Modernizm üslubuna gəlincə, Avropada bu üslubda fasad dekorasiyası üçün beton və ya süni mərmərdən istifadə edildiyi halda, azərbaycanlı ustalar daşdan istifadə ediblər. Bu gün Bakıya xüsusi gözəllik verən bir çox binanın fasadındakı naxış, fiqur və elementlərin daşdan yonulması çox yüksək dəqiqlik və ustalıq tələb edən iş olub.

Qeyd edək ki, H.M.Yohenninq həmçinin "Bakı şəhərinə səyahət" kitabının müəllifidir. Bu nəşr Azərbaycan paytaxtına səfər etmək istəyən almandilli turistlər üçün sanballı vəsaitdir. Müəllif gələcəkdə "Azərbaycana səyahət" adlı kitab layihəsi üzərində işləmək istədiyini də deyib.



# Azərbaycan tarixşünaslığında məktəb yaradan alim

## Akademik Yaqub Mahmudovun "Seçilmiş əsərləri"nin təqdimatı oldu

əvvəli səh. 1-də

Direktor onu da diqqətə çatdırdı ki, Yaqub Mahmudov ölkə tarixşünaslığında yeni bir məktəb yaradıb və bu məktəbin nümayəndələri Azərbaycan elminə və dövlətçiliyinə xidmət edən tədqiqatlar, araşdırmalar aparırlar.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Yaqub Mahmudovun nəfis tərtibatda işıq üzü görmüş seçilmiş əsərlərinin tariximizlə bağlı həqiqətləri özündə əks etdirən əhəmiyyətli elmi mənbə olduğunu dedi. Bildirdi ki, görkəmli alim 1966-cı ildən bu günümüzə qədər mühüm elmi araşdırmalar aparıb, Azərbaycan tarixşünaslığını zənginləşdirib. Alimin bu gün təqdim olunan külliyyatında qədim və orta əsrlər Azərbaycan tarixi, Azərbaycan diplomatiyası, ölkəmizin tarixi əlaqələri, müstəqillik tariximiz və dövlətçilik salnaməmizdə müstəsna rol oynayan ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti öz əksini tapıb.



Vaqif Əliyev alimlə bağlı xatirələrini bölüşdü. Qeyd etdi ki, Yaqub müəllimin qəlbi daim Azərbaycan həqiqətləri ilə döyünüb: "O, daim çalışıb ki, bu həqiqətlər bütün dünyaya çatsın. Yaqub Mahmudovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək "Şöhrət" və "Şərəf" ordenlərinə, Əməkdar elm xadimi kimi yüksək ada layiq görülüb. Ona bundan sonrakı elmi yaradıcılığında uğurlar arzu edirəm".

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi Nərgiz Axundova çıxışında Yaqub Mahmudovun hər bir əsərində milli maraqlarımızın əks olunduğunu söylədi. Qeyd etdi ki, alim Azərbaycan tarixşünaslığında yeni bir elmi istiqamət yaradıb. Onun çoxsaylı tələbələri, rəhbərlik etdiyi kollektiv bu məktəb çərçivəsində fəaliyyət göstərirlər.

Milli Məclisin deputatı, tarixçi, professor Fəzail İbrahimli Yaqub Mahmudovun milli dövlətçilik tariximizdə əhəmiyyətli rol oynamış ən mühüm tarixi mərhələləri araşdırdığını vurğuladı. Bildirdi ki, o, Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasəti və diplomatik əlaqələri, Azərbaycan diplomatiyasının tarixi, xalqımızın etnik siyasi tarixi, dövlətçilik ənənələri və intibah mədəniyyəti, Qarabağ, Naxçıvan və İrəvanın etnik və siyasi tarixi, iqtisadi inkişaf mərhələləri, mədəniyyəti, Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətinin uğurlarını Azərbaycan dövlətçiliyinin tarixi fonunda tədqiq edib.

Millət vəkili, professor Elman Nəsirli, professor Anar İsgəndərov, Tarix İnstitutunun direktor müavinləri, professor Cəbi Bəhramov, tarix üzrə elmlər doktoru Tofiq Nəcəfli görkəmli alimin pedaqoji fəaliyyətindən, geniş araşdırmalarından söhbət açdılar. Bildirildi ki, bu əsərlər alimin ən böyük sərvətidir. Dövr, zaman dəyişsə də, bu əsərlər öz dəyərini və aktuallığını itirməyəcək.

Sonda akademik Yaqub Mahmudov tədbir iştirakçılarına, Milli Kitabxananın kollektivinə minnətdarlıq etdi. Bir alim kimi uğur qazanmasının ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinə layiqli diqqət və qayğısının nəticəsi olduğunu, bu gün bu siyasətin Prezident İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırdı. Akademik ötən illərdə Tarix İnstitutunun 13 əməkdaşının Dövlət mükafatına layiq görüldüyünü və bundan qürur hissi keçirdiyini söylədi.

Tədbirdə həmçinin AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun 2018-ci ildə nəşr etdirdiyi kitabların kolleksiyası Milli Kitabxanaya təqdim edildi.

**Savalan FƏRƏCOV**

---



# "Kinomuzun parlaq səhifələrinə yazılan filmlərdə əməyim varsa..."

Yanvarın 29-u C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 40 ildən artıq fəaliyyət göstərən, hazırda direktor müavini işləyən Şirvan Abbasovun 60 illiyi münasibətilə dostları və həmkarları bir araya gəliblər.

Kinostudiyanın direktoru, Əməkdar incəsənət xadimi Müşfiq Hətəmovun otağında toplaşanların yubilyarı təbrik etmək üçün həm xatirələri çoxdur, həm də vaxtilə çalışdıqları filmlərin ərsəyə gəlməsində göstərdiyi xidmətlərdən danışmağa ürək sözləri.

İlk olaraq Müşfiq Hətəmov yubilyara xoş diləklərini çatdırdı. Bildirdi ki, Şirvan Abbasov 1980-ci ildən təchizat şöbəsində işə başlayıb, sıravi işçi, daha sonra tikinti şöbəsi və təmir sexinin rəisi olub. Bu müddət ərzində savadı, işgüzarlığı, bacarıqlı təşkilatçılığı və insani keyfiyyətləri ilə bütün kollektivin hörmət və məhəbbətini qazanıb.

Əməkdar artist, aktyor və rejissor Elxan Qasımov yubilyarı təbrik edərək onun kinostudiyadakı fəaliyyətindən söz açdı. Qeyd etdi ki, bu illər ərzində çəkilən hər bir filmin tikinti təchizatının dəqiqliklə yerinə yetirilməsində Şirvan Abbasovun fəaliyyəti danılmazdır. İstənilən avadanlığın əldə edilməsi, filmin daha uğurlu alınması üçün o, hər zaman bütün bacarığını sərf edib. Onun əməyi dövlət tərəfindən qiymətləndirilib və Azərbaycan kinosunun 120 illiyi münasibətilə "Tərəqqi" medalı ilə təltif edilib. Şirvan Abbasovun kino sahəsinə bağlılığı, təcrübəsi və sənətə töhfəsi bu sahədə fəaliyyət göstərən gənclərə örnəkdir.

Tədbirdən sonra yubilyarla qısa söhbət etdik. Şirvan müəllim deyir ki, 40 ildir ki, fasiləsiz olaraq "Azərbaycanfilm"də çalışır: "Baxmayaraq ki, təhsilim, ixtisasım kino sahəsi üzrə deyil. Artıq 10 ildən artıqdır ki, ümumi işlər üzrə direktor müaviniyəm. Buna qədər təmir-tikinti sahəsinə rəhbərlik etmişəm. Bu illər ərzində kinonu o qədər çox sevmişəm ki, bu sevgim məni hər gün daha çox bu sahəyə bağlayıb. "Azərbaycanfilm"in nüfuzu o qədər güclü olub ki, bu günə kimi filmlərin çəkilişi ilə bağlı əlaqə qurmaq istədiyimiz bütün təşkilatlar, dövlət idarələri, yaxud lazım olan avadanlığı əldə etmək üçün müraciət etdiyimiz istehsalçı şirkətlər hər zaman böyük məhəbbət və hörmətlə bizə yardımçı olublar".

Müsahibim bildirir ki, bir çoxları onun mühəndis kimi öz sahəndə daha böyük uğur əldə edə biləcəyini desə də, işindən razıdır: "Ömrümü kinostudiyaya bağlamaqda heç də peşman deyiləm. Bu günə kimi çoxsaylı filmlərin dekorasiyasına lazım olan tikinti işlərinin həyata keçirilməsində yaxından iştirak etmişəm. Kinomuzun ən parlaq səhifələrinə yazılan filmlərdə əməyim varsa, bu mənim üçün böyük xoşbəxtlikdir".

Yubilyar vurğulayır ki, bu illər ərzində kinonu o qədər çox sevib ki, onun üçün çətin tapşırıq, çətin iş anlayışı olmayıb: "Filmlərdə maraqlı görüntü yaradan çoxsaylı tikililər olub ki, həmin işlər kinolentlərdə əbədiləşərək öz ömrünü yaşayır. Qurğu, dekorasiyadan fərqli olaraq, əsaslı tikililər də kino çəkilişində əhəmiyyətli yer tutur. Çox şadam ki, bu gün yubileyimi kinostudiyada, sevimli kollektivimlə birlikdə qeyd edirəm. Bu yaşın 40 ilini bir kollektivdə yaşamağın özü də böyük şərəfdir. Gəncliyimdən burada korifey sənətkarlarla çalışmışam. Bu gün ən əziz dostlarım sırasında Rasim Balayev, Elxan Qasımov, Əsəd Əsədov kimi insanlar var. Onlardan yaşca kiçik olsam da, hər birinin sevgisi ilə əhatə olundum, onların dostluğu ilə bu yaşa çatdım".

Ötən il "Tərəqqi" medalı ilə təltif edilməsini həyatında ən əlamətdar hadisə hesab edən Şirvan müəllim əməyinə verilən qiymətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirdi.

**L.AZƏRİ**

---

# Şəkidə Şəfiqə Axundovanın 95 illiyi qeyd olunub

Şəki şəhər M.F.Axundzadə adına Mədəniyyət mərkəzində Şərqin ilk xanım opera bəstəkarı, Xalq artisti Şəfiqə Axundovanın 95 illiyinə həsr olunmuş "Nəğmədir həyat" adlı ədəbi-bədii tədbir keçirilib.



Mərkəzin bədii rəhbəri Rəşad Rüstəmovun aparıcılıq etdiyi tədbirdə Şəfiqə Axundovanın həyat və yaradıcılığı barədə danışılıb, videoçarx nümayiş etdirilib.

"Səbuhi" instrumental ansamblının müşayiəti ilə müğənnilər İdris İdrisov, Zabil Məmmədov, Sərdar Yunusov, Mustafa Salamzadə bəstəkarın "Sənin nəğmən", "Gecələr yuxusuz qoymusan məni", "Nədən oldu", "Şəki", "Gözlərimin işığı sənsən", "Həsrətindəyəm", "Mehriban olaq", "Neyçün gəlməz" mahnılarını ifa ediblər. Mərkəzin aparıcı metodisti Nazilə Qafarova "Səni axtarıram mən bu həyatda" şeirini söyləyib.

Tədbirin sonunda Şəfiqə xanımın tələbəsi olmuş mərkəzin direktoru Ağaəli Cəlilov müəlliməsi haqqında öz xatirələrini bölüşüb.

# "Ritm bir dünyadır"

Sumqayıt Regional Mədəniyyət İdarəsinin şəbəkəsinə daxil olan Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət mərkəzində "Ritm bir dünyadır" adlı müsabiqənin 1-ci turu keçirilib.



Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş müsabiqədə 3 saylı, Bülbül və S.Rüstəmov adına incəsənət məktəbləri, Q.Qarayev, F.Əmirov adına musiqi məktəbləri, N.Nərimanov adına Mədəniyyət mərkəzi, "28 May" Diyarşünaslıq və "Dostluq" mədəniyyət evlərindən 22 nəfər nağara ifaçısı iştirak edib. "Rövşən" ritm qrupunun rəhbəri Rövşən Cabbarov, Eyvaz Rzayev, Azər Vahidi və Vaqif Əliyevdən ibarət münsiflər heyəti onların ifalarını qiymətləndiriblər.

Müsabiqənin 2-ci turu fevral ayının sonunda keçiriləcək.

# Tələbələr "Fiqaronun toyu"nda

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində P.O.Bomarşenin əsəri əsasında hazırlanmış "Fiqaronun toyu" tamaşası nümayiş olunub.

Teatr sənəti fakültəsinin musiqili teatr aktyoru ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə səhnələşdirilən tamaşanın quruluşçu rejissoru Ruslan İsmayılov, musiqi və rəqslərin müəllifi Nəzrin İsmayılovadır.



Tamaşada tələbələr Nəzrin İsmayılova (Qrafinya), Əlizamin Abbasov (Qraf Almaviva), Tural Xəlilbəyli (Fiqaro), Fidan Əliyeva (Süzanna), Hüseyn Sadıqov (Bartolo), Ayşən Əsədova (Marselina), Muxran İsmayılov (Kerubino), Jalə Hacızadə (Fanşetta), Qüdrət Qurbanzadə (Antonio), Elvin Nuri (Bazil), Əli Heydərov (Don Briduazon) və Fəridə Qurbanova (Fanşetta) çıxış ediblər. Janrı "maskalı oyun" kimi təyin olunan tamaşa maraqla qarşılanıb.

Nümayişdən sonra ADMİU-nun rektoru, professor Ceyran Mahmudova, Teatr sənəti fakültəsinin dekanı, dosent Ellada Hüseynova, Musiqili teatr aktyoru kafedrasının müdiri, professor İlham Namiq Kamal, Teatrşünaslıq kafedrasının müdiri, professor Aydın Talıbzadə, professor İsrafil İsrafilov, Xalq artisti Məmmədsəfa Qasımov və digər müəllimlərin iştirakı ilə keçirilən müzakirədə tələbə-aktyorların ifaları təhlil olunub.

**LALƏ**

# Gənclər günü ilə əlaqədar tədbir keçirilib

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində "Azərbaycan gəncliyi: vəzifələr, hüquqlar" mövzusunda tədbir keçirilib.

Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib, ölkədə gedən proseslərin önündə olub.



2 fevral – Gənclər günü münasibətilə təşkil olunan tədbirdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev, muzeyin direktoru Pakizə Mehdiyeva, digər çıxış edənlər ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətindən söz açıblar. Bildirilib ki,

Tədbirdə Azərbaycan gəncliyindən bəhs edən film nümayiş olunub. Gənclər musiqi nömrələri ifa edib, vətənpərvərlik şeirləri səsləndiriblər.

Konfransda ötən il nailiyyətləri ilə seçilən bir qrup fəal gəncə mükafatlar təqdim olunub.

# Sosial elmlər mövzusunda beynəlxalq simpozium

Gürcüstanın paytaxtı Tiflisdə 24-26 yanvar tarixində Qara dəniz sosial elmlər beynəlxalq simpoziumu keçirilib.

Simpoziumu Türkiyənin Ərdahan Universitetinin professoru, folklorşünas və tədbirin təşkilatçısı Ərdoğan Altınkaynak açaraq, iştirakçıları salamlayıb. Türkiyə, Azərbaycan, Gürcüstan, Kanada, Kosova, Qazaxıstan, Ukrayna, İran, Qırğızıstan və Tacikistanın müxtəlif qurumlarının birgə təşkilatçılığı ilə baş tutan simpoziumda müxtəlif mövzularda məruzələr dinlənilib.

Tədbirdə Azərbaycandan 10-dan çox alim iştirak edib. AMEA Folklor İnstitutunun əməkdaşları – filologiya üzrə fəlsəfə doktoru, dosent Sönməz Abbaslı "Qarabağ məsələlərinin özəlliyi", filologiya üzrə fəlsəfə doktoru Məleykə Məmmədova "Azərbaycan və Anadoluda topla oynanan uşaq oyunları" və filologiya üzrə fəlsəfə doktoru Aynur Cəlilova "Qafqaz xalqlarının ovçuluq miflərinə baxış" mövzusunda məruzələrlə çıxış ediblər. Simpoziumun danışıq dili türk, ingilis, gürcü və rus dilləri olub.

Sonda məruzəçilərə təşəkkürnamə təqdim olunub. Beynəlxalq simpoziumun ildə iki dəfə keçirilməsi nəzərdə tutulur.

**S.QALİBOĞLU**

# Əhali ilə keçirilən görüşlər mədəniyyət siyasətinin uğurla gerçəkləşməsinə töhfə verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən yerlərdə vətəndaşların qəbulu keçirilir. Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev 2018-ci ildə respublikanın müxtəlif şəhər və rayonlarında sakinlərlə görüşüb, onların müraciətlərini dinləyib.

### 65 şəhər və rayondan vətəndaşların qəbulu

Mədəniyyət naziri tərəfindən il ərzində 2 şəhər və 9 rayonda keçirilən səyyar qəbullarda respublikanın 65 şəhər və rayonundan 236 vətəndaş iştirak edib.

Qəbulla əlaqədar öncədən KİV-lərdə müvafiq məlumatın verilməsi təşkil olunub və müraciət etmək istəyən vətəndaşların qeydiyyatı aparılıb. Vətəndaşlar əvvəlcədən Mədəniyyət Nazirliyinin mct@mct.gov.az elektron poçt ünvanı, e-services.mct.gov.az elektron xidmətlər saytı və telefon məlumat sistemi (qaynar xətt – 147) vasitəsilə nazirliyə, eləcə də müvafiq regional mədəniyyət idarələrinə müraciət etməklə qəbula yazılıblar.

Nazirliyin məsul işçilərinin də iştirak etdikləri görüşlərdə ən çox Mingəçevir şəhərindən (28 nəfər), Abşeron rayonundan (27), Zaqatala və Qusar (hər birindən 23), Qəbələ və Qazax rayonları (22), Naftalan şəhəri və Cəlilabad rayonu (20), Göyçay (19), Salyan (17) və Hacıqabul (15) rayonlarından vətəndaşlar iştirak edib.

Təhlillər göstərir ki, səyyar qəbullar yerlərdə problemlərin öyrənilməsində, mədəniyyətin müxtəlif sahələrinin inkişafında, vətəndaşların bu sahədə fəallıqlarının artırılmasında xüsusi önəm kəsb edir. Hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

236 vətəndaş müraciətinin 233-ü Mədəniyyət Nazirliyinin səlahiyyətinə aid, 3-ü isə nazirliyin fəaliyyət dairəsindən kənar olub. Üç vətəndaşın müraciəti baxılması üçün aidiyyəti üzrə Səhiyyə Nazirliyinə, Dövlət Turizm Agentliyinə və Ucar Rayon İcra Hakimiyyətinə göndərilib. Ümumilikdə isə 236 müraciətdən 234-ü icra olunub, 2-si isə hazırda icraatdadır.

### Sakinlərin tarixi-mədəni irsə həssas münasibəti

Vətəndaşların qəbulu zamanı daxil olan müraciətlər əsasən işlə təmin edilmə, iş yerinin dəyişdirilməsi, Uşaq musiqi məktəbinin incəsənət məktəbinə çevrilməsi, yeni dərs vəsaitləri, mahnı və musiqi notları ilə təmin edilmə, uşaq musiqi və incəsənət məktəblərində yeni siniflərin açılması, attestasiyaların keçirilməsi, ustad dərslərinin təşkili, musiqi alətlərinin təbliği, klub müəssisələrinin rəqs və səhnə geyimləri və musiqi alətləri ilə təchiz edilməsi, bəzi kənd klublarının mədəniyyət evinə çevrilməsi barədə olub. Heydər Əliyev mərkəzlərinin ekspozisiyasının, rəsm qalereyalarının, muzey və kitabxanaların fondlarının zənginləşdirilməsi, intellektual oyunlara aid elektron nəşrlərlə təminat da müraciətlər sırasında yer alıb.

Sevindirici haldır ki, ölkəmizin çoxsərlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılmasında da sakinlərin təşəbbüskarlığı var. Bu mənada tarixi abidələrin təmir-bərpası və mühafizəsi, eramızdan əvvəlki dövrə aid olan mağaralara inventar nömrəsinin verilməsi, abidələrin qeydiyyata alınması, "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun saytında "Virtual Keşikçidağ" adlı turun yaradılması, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun abadlaşdırılması, Orta əsrlər Şəmkir qalasında, İmişli rayonunun Qızıltəpə yaşayış ərazisində arxeoloji işlərin davam etdirilməsi kimi müraciətlər vətəndaşların həssaslığından xəbər verir. Bundan əlavə, Bakı şəhərində Qarabağ müharibəsi, Gədəbəydə Simenslər, respublikanın şəhər və rayonlarında döyüş şöhrəti muzeylərinin, Beyləqanda Sovet İttifaqı Qəhrəmanı Qaray Əsədovun ev-muzeyinin, yeni mədəniyyət müəssisələrinin, rəsm qalereyalarının, xalçaçılıq sexinin, istedadlı gənclərin yaradıcılığının dəstəklənməsi məqsədilə mərkəzin yaradılması ilə diqqətəlayiq təşəbbüslərdəndir.

Vətəndaşların müraciətlərində qaldırdıqları yeni mədəniyyət müəssisələrinin inşası və əsaslı təmiri ilə bağlı problemlərin bir çoxunun icrası nazirliyin gələcək illərin investisiya proqramı layihəsinə daxil edilib, bəzi problemlər isə artıq müsbət həllini tapıb.

### Səmərəli təklif və layihələrə dəstək

2018-ci ildə nazirliyə daxil olmuş müraciətlərin 39 faizini təkliflər təşkil edir. Bu təkliflər vətəndaşların fəal ictimai mövqeyinin ifadəsi kimi xüsusi əhəmiyyət daşıyır və onlar nazirlik tərəfindən diqqətlə öyrənilir, əsaslı təkliflərin həyata keçirilməsi üçün müvafiq tədbirlər görülür.

Vətəndaşlar öz müraciətlərində ölkədə mədəniyyət sahəsinin inkişaf etdirilməsi və onun iqtisadi qüdrətinin daha da artırılması üçün həyata keçirilməli layihələrin qəbul olunmasını, respublika miqyaslı məsələlərə yanaşı, çalışdıqları müəssisələrin mövcud problemlərini qaldırır və bu sahədə öz köməklərini təklif edirlər.

Sumqayıt şəhər sakini, kinoaktyor Ruslan Sabirlinin təşkil etdiyi "Kitab çək" adlı Buktreyler festivalının dəstəklənməsi barədə müraciəti müsbət həll edilib və nazirliyin dəstəyi ilə 2018-ci ilin 2 mayında artıq sayca 3-cü festivalın mükafatlandırılma mərasimi keçirilib.

Tətbiqi sənət ustası Xuraman Səfərova müraciətində Sumqayıt şəhərində dekorativ sənət ustalarının festivalının keçirilməsinə lazımi köməklik göstərilməsini xahiş etmişdi. Mədəniyyət Nazirliyinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihəsi – "100 illik tariximiz" devizi altında keçirilmiş "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı çərçivəsində avqustun 4-də Sumqayıt şəhərində dənizkənarı bulvar ərazisində regional mədəniyyət idarələri üzrə şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin satış-sərgisi təşkil edilib.

Sumqayıt Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi Günel Hüseynovanın müraciəti əsasında qalereyada istedadlı gənclər tərəfindən yaradılmış tətbiqi sənət əsərlərinin satış mərkəzi təşkil olunub.

Balakən Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Zenfira Mustafayevanın rayonda "Xurma festivalı"nın geniş şəkildə təşkili ilə bağlı müraciəti əsasında oktyabrın 28-də Balakən şəhərində II Beynəlxalq Xurma festivalı keçirilib.

Oğuz rayon MKS-nin Uşaq şöbəsinin müdiri Kəmalə Cəfərovanın rayonda "Şəfa" bayramının daha geniş şəkildə təşkilinə dəstək göstərilməsi ilə bağlı müraciətinə əsasən, Şəki Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə sentyabrın 21-də Oğuzda "Şəfa" bayramı keçirilib.

Goranboy rayon Mədəniyyət Mərkəzinin rəssamı Asəf Cəfərovun müraciəti ilə bağlı 28 May – Respublika Günü münasibətilə təşkil olunmuş ümumrayon bayram şənliyində yerli incəsənət ustaları ilə yanaşı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Gəncə Dövlət Filarmoniyasının tanınmış incəsənət ustalarının iştirakı təmin olunub.

Xocalı rayon MKS-nin əməkdaşı Asimə Həsənovanın müraciəti nəzərə alınaraq bu kitabxana ilə Şəmkir, Bərdə, Ağcabədi, İsmayıllı və Şəkinin MKS-ləri arasında əməkdaşlıq əlaqələri qurulub.

Tovuz rayonundan Əməkdar mədəniyyət işçisi Əlixan Niftəliyevin aşıq yaradıcılığının təbliği və təşviqində uzunmüddətli və səmərəli fəaliyyəti nəzərə alınaraq anadan olmasının 75 illiyi qeyd edilib, aşıq nazirliyin fəxri fərmanı və mükafatı ilə təltif olunub.

Qazax Dövlət Rəsm Qalereyasının əməkdaşı Yasəmən Əsgərovanın müraciəti əsasən, 30 iyul - 25 noyabr tarixlərində qalereyada "YARAT" Müasir İncəsənət Məkanı tərəfindən Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilati dəstəyi ilə italyan rəssamı Mikelancelo Pistoletto və yerli rəssamların əsərlərindən ibarət "Yenə o bağ olaydı" səyyar sərgisi təşkil olunub. Dekabrın 18-də isə Qazaxda görkəmli Azərbaycan rəssamlarının əsərlərindən ibarət "Yeni üfüqlər" adlı rəsm sərgisi keçirilib. Bunlardan əlavə, Qazax Dövlət Rəsm Qalereyasında (daha sonra Gəncə və Bakıda) rayon İcra Hakimiyyəti, TÜRKSOY, "ASAN Xidmət" və Azərbaycan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə beynəlxalq incəsənət festivalının keçirilməsi planlaşdırılır.

Hər il olduğu kimi, 2018-ci ildə də regionlardakı mədəniyyət müəssisələrinin, uşaq musiqi və incəsənət məktəblərinin fəaliyyətinin yaxşılaşdırılmasına dair müraciətlər nəzərə alınaraq nazirlik tərəfindən lazımi kömək göstərilib, müvafiq inventar və avadanlıqlarla, musiqi alətləri, milli rəqs geyimləri, çap məhsulları və digər təsərrüfat malları ilə təmin olunublar.

Ağstafa Dövlət Rəsm Qalereyasının bərpaçı, rəssamı Ehtiram Xəlilovun müraciətinə əsasən, Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan seçilmiş 30 ədəd təsviri sənət əsərinin bu qalereyanın daimi balansına verilməsi təmin edilib.

Zaqatala rayon MKS-nin Uşaq şöbəsinin müdiri Ayşə Rəşidovanın müraciəti ilə bağlı olaraq kitabxana köhnə kitabların kiril əlifbasından latın əlifbasına çevrilməsi məqsədilə Azərbaycan Milli Kitabxanası tərəfindən "Azkonvert" və "Fine Reader" proqramları və skan aparatı ilə təmin olunub.

Tovuz rayon Əlimərdanlı kənd Mədəniyyət evinin direktoru Güllü İsgəndərovanın klub müəssisələrində fəaliyyət göstərən xalq teatrlarının repertuarlarının kiçik həcmli tamaşalarla zənginləşdirilməsi ilə bağlı müraciəti əsasında nazirlik tərəfindən sentyabr ayında "Birpərdəli pyeslər" müsabiqəsi elan edilib.

Cəbrayıl rayonu Böyük Mərcanlı kənd Uşaq incəsənət məktəbinin müəllimi Tofiq Bayramovun çalışdığı müəssisənin, rayon Mədəniyyət evinin bədii rəhbəri Ruslan Haqverdiyev Cocuq Mərcanlı kəndində inşa edilmiş klub-icma mərkəzinin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı müraciətləri də müsbət həll olunub.

### Təcrübə mübadiləsi, yeni yanaşmalar

Regionlarda mədəni xidmətlərin keyfiyyətinin daha da artırılması Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır. Bölgələrdə fəaliyyət göstərən əməkdaşların bilik və bacarıqlarının artırılması, onların xarici dil biliklərinin təkmilləşdirilməsi, eləcə də müasir texnologiyalardan daha səmərəli istifadə etmələri üçün treninqlər və kurslar təşkil edilir.

Qəbullar zamanı vətəndaşların müraciətləri əsasında uğurla gerçəkləşmiş tədbirlər sırasında bölgələrdə incəsənətin ayrı-ayrı sahələri üzrə ustad dərslərinin təşkili, Azərbaycan ədiblərinin oxucularla görüşləri, müxtəlif sahələr üzrə mütəxəssislərin bölgələrə ezam olunması, səyyar treninqlər, sərgilər və digər bu kimi tədbirləri örnək göstərmək olar.

Zaqatala rayon MKS-nin Metodika və biblioqrafiya şöbəsinin baş biblioqrafı Yasəmən Məmmədovanın kompüter proqramlarının öyrənilməsi ilə bağlı müraciəti nəzərə alınaraq Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində 1-20 oktyabr və 5-26 noyabr tarixlərində "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbələrinin sistem inzibatçıları" və "Multimedia və ya kitabxana informasiya texnologiyaları üzrə mütəxəssislər" qruplarında müvafiq MKS-lər üzrə 65 nəfər kitabxanaçı kursların iştirakçısı olub.

Ağdaş rayon Mərkəzi kitabxanasının Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri Hüsniyyə İsmayılovanın müraciəti ilə 9-14 aprel tarixində Azərbaycan Milli Kitabxanasında ALİSA elektron kitabxana sisteminin tətbiqi ilə əlaqədar rayon (şəhər) MKS-lərin əməkdaşları üçün treninqlər təşkil edilib.

Zərdab şəhərindəki Həsən bəy Zərdabi muzeyinin işçisi Rəna Namazovanın müraciəti əsasında aprelin 17-də rayondakı Heydər Əliyev Mərkəzində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin təşkilatçılığı, Ağdaş Regional Mədəniyyət və Turizm İdarəsinin dəstəyi ilə gənc mədəniyyət işçilərinin növbəti regional görüşü keçirilib.

* * *

Yerlərdə keçirilən qəbullarda iştirak edən vətəndaşlar mədəniyyət sahəsində aparılan quruculuq işlərinə, tarixi-mədəni irsin qorunmasına, ölkəmizdə və dünyada təbliğinə, eləcə də göstərilən qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Mədəniyyət Nazirliyi səyyar vətəndaş qəbulları zamanı sakinlər tərəfindən qaldırılmış məsələlərin həllini həmişə diqqətdə saxlayır. Çünki vətəndaşların gündəmə gətirdikləri məsələlərin əksəriyyəti Azərbaycan dövlətinin mədəniyyət siyasətinin uğurla reallaşmasında, əhalinin asudə vaxtının mənalı və səmərəli təşkilində əhəmiyyətli rol oynayır.

**Tahirə ƏLİYEVA**
**Mədəniyyət Nazirliyi Kollegiyasının məsul katibi**

# Fevral ayının "Afişa"sı – teatr və kinodan konsert və sərgilərədək...





əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə hazırlanaraq nəşr olunan və pulsuz yayılan "Afişa" əlavəsinin fevral sayı çapdan çıxıb. Nəşrdə Akademik Milli Dram, Akademik Opera və Balet, Musiqili, Rus Dram, Gənc Tamaşaçılar, Kukla, Yuğ, Pantomima teatrlarının tamaşaları, Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası, Kamera və Orqan Musiqisi Zalı, Beynəlxalq Muğam Mərkəzi, Dövlət Mahnı Teatrındakı konsert proqramları, eləcə də şəhərdəki kino zalları və sərgi salonlarındakı film və tədbirlər barədə ətraflı məlumat almaq mümkündür. Həmçinin teatrlarda tamaşaların nümayiş günü və saatı ilə bərabər, ayrı-ayrı tamaşaların mövzusu, yaradıcı heyəti barədə qısa yazılar, qalereya, konsert zalları və kinoteatrların ümumi afişası ilə yanaşı, sərgilər, konsertlər, filmlər barədə anons-informasiyalar da verilib.




Fevral ayı xalqımızın yaddaşına Xocalı soyqırımı qurbanlarının xatirəsi ilə həkk olunub. "Afişa" əlavəsində bu hüznlü tarixlə bağlı mədəniyyət ocaqlarında keçiriləcək tədbirlər qeyd edilib, həmçinin birinci səhifədə Xocalının səhnə yaddaşı olan "Arzu və Murad" tamaşasına (Gənc Tamaşaçılar Teatrında) xüsusi yer verilib.

Rəngli tərtibatda, yığcam, praktik formatda hazırlanan "Afişa" əlavəsində hər kəs öz zövqünə, maraq dairəsinə uyğun mədəni istirahət məkanı seçə, bu məkanlarda istədiyi günə, saata uyğun tamaşa, konsert, film, sərgi seçərək vaxtını səmərəli dəyərləndirə bilər.

"Mədəniyyət+Afişa" nəşri Mədəniyyət Nazirliyinin və "ASAN Xidmət"in dəstəyi ilə paytaxtın müxtəlif məkanlarında yayılır. Nəşrin fevral buraxılışı yanvarın 31-dən etibarən "ASAN Xidmət" mərkəzlərində sakinlərə təqdim olunur. "ASAN Xidmət" əməkdaşları vətəndaşlara nəşr haqqında məlumat verirlər.

1 saylı "ASAN Xidmət" mərkəzinə gəlmiş Aytac Həsənova deyir ki, şəhərimizin mədəniyyət ocaqları haqqında belə bir nəşrin hazırlanması təqdirəlayiqdir: "Qəzetdə Bakıdakı mədəniyyət müəssisələrində təşkil olunacaq mədəni tədbirlər haqqında geniş məlumatlar var. Rəngarəng fotolar da diqqət çəkir".

Maarif İsmayılov da Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən layihəni yüksək qiymətləndirir. Deyir ki, belə bir nəşrin ərsəyə gəlməsi şəhərimizin mədəni həyatına işıq salır. Bu həm də bizi mədəni tədbirlərdə iştiraka sövq edir.

Mərkəzə gələn vətəndaşlardan Azər Rüstəmov "Afişan"ı maraqla vərəqləyir, təəssüratını bizimlə bölüşür: "Mədəniyyət hər bir millətin inkişafının başlıca təməlidir. Mədəniyyət Nazirliyinin bu layihəsini əhəmiyyətli hesab edirəm. Burada, "ASAN Xidmət" mərkəzində gözəl xidmətin olduğu bir yerdə belə bir aksiyanın keçirilməsi də təqdirəlayiqdir".

Qeyd edək ki, "Afişa" əlavəsinin fevral buraxılışı paytaxtın teatrlarında, digər mədəniyyət ocaqlarında da pulsuz əldə etmək olar. Nəşrin məqsədi Bakı sakinlərini, eləcə də şəhərə gələn qonaqları mədəniyyət məkanlarının fəaliyyəti barədə məlumatlandırmaq, əhalinin mədəni istirahətinin daha dolğun təşkili üçün bu müəssisələrin fəaliyyətinə informasiya dəstəyi verməkdir.

## "Mədəniyyət.AZ" jurnalının növbəti sayında

"Mədəniyyət.AZ" jurnalının növbəti sayı çapdan çıxıb. Dərginin bu sayında ötən ilin son aylarının əlamətdar hadisələrinə məqalə, müsahibə və fotoreportajlara həsr olunub.

Bu sayda həmçinin VI Bakı Beynəlxalq Forumunun yekunları şərh edilib, tədbirin qonaqları ilə müsahibələr verilib.

"Vətən uzaqda deyil!.." qeydlərində Cümhuriyyət qurucularından Ceyhun Hacıbəylinin Fransada yaşayan gəlini və nəvəsinin vətənə gəlişindən bəhs edilir.

Qazax Müəllimlər Seminariyasının 100 illiyi ilə əlaqədar Prezident sərəncamına uyğun, təhsil ocağının ölkəmizdə necə yarandığı barədə Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" araşdırması söz açır.

"Ədəbiyyat" bölümündə 2019-cu ilin "Nəsimi ili" elan olunması ilə bağlı Cahangir Səlimxanovun "Simadan Asimana..." məqaləsi yer alıb. Yazıçı İsa Muğannanın həyat və yaradıcılığına qızı Sevinc Muğanna ilə söhbət kontekstində nəzər salınır.

"Teatr" rubrikası V Bakı Beynəlxalq Teatr Festivalından reportaj, paytaxtımıza təşrif buyurmuş məşhur sənətçilərlə müsahibələrlə zəngindir.

Jurnalın bu sayını əlamətdar edən məqamlardan daha biri dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyi münasibətilə həyat və yaradıcılığı, eləcə də vətəndə keçirilən sərgisi haqqında materialdır.

UNESCO-nun siyahısına daxil edilmiş "Yallı" (Köçəri, Tənzərə) rəqslərinin keçib gəldiyi tarixi yola "Rəqslər milli sərvətimizdir" tədqiqatı ilə işıq tutulur.

Jurnal həmişəki kimi, öz səhifələrində elmi axtarışlara məşğul olan tanınmış alimlərə və gənc tədqiqatçılara da yer ayırıb.

## Şəki Dövlət Rəsm Qalereyasında sərgi

Şəki Dövlət Rəsm Qalereyasında 2 fevral – Gənclər günü münasibətilə "Gənclər bizim sabahımızdır" adlı sərgi açılıb. Sərgidə gənc rəssam Elxan Kərimovun 30-dan çox rəsmi və taxtadan hazırladığı Xan sarayının maketi nümayiş etdirilib.



Şəki "Sənətkarlar evi"ndə yerləşən emalatxanasında fəaliyyət göstərən Elxan Kərimov müxtəlif mövzularda işləyir, əsərlərində daha çox peyzaj və natürmort janrına üstünlük verir. Bir sıra festival və müsabiqələrdə iştirak edərək diplom və fəxri fərmanlarla təltif olunub.

Sərgi Şəki Pedaqoji İnstitutunun, Regional Kollecin, Texniki Kollecin və Tibb Kollecinin tələbə kollektivləri tərəfindən maraqla qarşılanıb.

## "Günəşin nuru" təqdim olunub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Xətai rayon MKS-nin Mərkəzi kitabxanasında gənc şairlərin şeirlərindən ibarət "Günəşin nuru" adlı antologiyanın təqdimatı keçirilib.

Antologiyada Asif Əliyev, Aysel Nəsirzadə, Ceyhun Şirvani, Çiçək, Çingiz Səmədli, Esmira Günəş, Humay Nur və başqalarının şeirləri toplanıb.

Layihənin rəhbəri Esmira Günəş gənc yazarlara dəstəyə görə Xətai rayon MKS-nin kollektivinə təşəkkürünü bildirib.

Gənc yazarlar öz şeirlərindən nümunələr səsləndiriblər, MKS-nin direktoru Həmidə Məmmədova onlara uğurlar arzulayıb.

## "Alnımızdadır göy üzü"

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində gənc şair Cahandar Aybərin "Alnımızdadır göy üzü" adlı ilk şeirlər kitabının təqdimatı keçirilib.

Mərkəzin direktoru, "Ələk" ədəbi məclisinin rəhbəri Məhsəti Musa, AYB-nin üzvü Gündüz Sevindik, Vəli Qurbanoğlu, Saqif Zeynal, rayon İcra Hakimiyyətinin əməkdaşı Vüsalə Məmmədova, oxucular çıxış edərək gənc şairin yaradıcılığından bəhs edib, onun istedadlı və zəhmətkeş qələm sahibi olduğunu vurğulayıblar.

Mərkəzdə fəaliyyət göstərən "Həvəskar aktyorluq və bədii qiraət" kursunun üzvü Röyalə Hümbətova və şairin özü kitabdan nümunələr söyləyiblər.

## Gənc şairlə görüş

İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində istedadlı gənc yazar Fərid Sadıqovla görüş keçirilib.

Tariximizə, ədəbiyyatımıza böyük marağı olan Fərid bir çox mövzularda qələmini sınayıb. Onun "Türk oğlu", "Şəhidim", "Zəmanə", "Tər gül", "A dağlar" və s. şeirləri ahəngdarlığı, tarixi əhatə baxımından maraqlı poetik nümunələrdir. O, həmçinin Mikayıl Müşfiqin 110 illiyinə şeir yazıb. Şeirlərindən ibarət kitabını hazırlamaq üçün böyük səylə çalışır.

Görüşdə gənc şairin yaradıcılığından söz açılıb, məktəblilərin ifasında şeirləri səslənib.

# Teatr muzeyində "Sənət haqqında söhbət"

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində "Sənət haqqında söhbət" layihəsi çərçivəsində "Rus dramaturgiyası Azərbaycan səhnəsində" və "Rus mənşəli rejissorların Azərbaycan teatrında rolu" mövzularında mühazirə saatı keçirilib.



Muzeyin elmi işçisi Mətanət Dadaşova vaxtilə Azərbaycanda fəaliyyət göstərmiş rus mənşəli teatr rejissorlarından respublikanın Xalq artisti Aleksandr Tuqanovun, Aleksandr İvanovun, Sergey Mayorovun, Yakov Varşavskinin həyat və yaradıcılıqlarından söhbət açıb. Dinləyicilərə onların quruluşunda hazırlanmış tamaşalardan fotolar və eskizlər təqdim olunub.

"Rus mənşəli rejissorların Azərbaycan teatrında rolu" mövzusu ətrafında muzeyin elmi işçisi Nurtən Şabanova çıxış edib. Mühazirədə Azərbaycanın görkəmli teatr rejissorları – xalq artistləri Ələsgər Şərifovun, Mehdi Məmmədovun, Tofiq Kazımovun həyat və yaradıcılıqlarından bəhs edilib, onların quruluş verdiyi teatr tamaşalarını əks etdirən kadrlardan ibarət video-çarx nümayiş etdirilib.

Mühazirə saatı Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin və Rusiyanın Azərbaycandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Görüşdə Bakı şəhəri Nərimanov rayonunun rus icması və Kazak Atamanları Cəmiyyətinin üzvləri, muzey əməkdaşları iştirak ediblər. Sonda qonaqlar muzeyin ekspozisiya zalları ilə yaxından tanış olublar.

# Notların "qanun"i rəqsi

Yanvarın 28-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Gənclərə dəstək" layihəsi çərçivəsində gənc qanun ifaçısı, Əməkdar artist Çinarə Heydərovanın solo konserti keçirildi.





Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq artisti, professor Ağaverdi Paşayev çıxış edərək ifaçının yaradıcılığı haqqında fikirlərini bölüşdü. Bildirdi ki, Çinarə Heydərova 16 yaşından orkestrdə çalışmağa başlayıb və öz istedadı ilə diqqəti cəlb edib. O, gözəl musiqi duyumu və qanun alətinə sevgisi sayəsində bu gün bir çox uğurlara imza atıb. Bildirildi ki, Çinarə Heydərova Bülbül adına Orta ixtisas musiqi məktəbinin fortepiano sinfində dörd il təhsil aldıqdan sonra öz arzusu ilə qanun alətini seçib: "Görünür, ifaçı bu seçimi ilə heç də səhv etməyib. Çünki bu gün o, muğamın və Azərbaycan xalq musiqisinin ölkəmizdən kənarda təbliğinə öz töhfələrini verir. Əbəs deyil ki, onun qanun alətində bacarıqlı ifası bəstəkar Dadaş Dadaşovun nəzərindən kənarda qalmayıb və qanun aləti üçün "Çinarənin sevinci" əsərini ifaçıya həsr edib. Musiqiçinin istedadı dövlətimiz tərəfindən də qiymətləndirilib, Əməkdar artist fəxri adına layiq görülüb".

Ağaverdi Paşayev onu da bildirdi ki, ifaçı çox az sayda musiqiçilərdəndir ki, həm solist, həm də orkestrlə yüksək səviyyədə işləyə bilir: "Bu gün biz çox sevinirik ki, Çinarə Heydərova həm gözəl ansambl ifaçısı, həm orkestr, həm də savadlı pedaqoq kimi fəaliyyət göstərir. O həm də dirijorluq ixtisasına tam yiyələnmiş musiqiçidir".

Daha sonra Çinarə Heydərova Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə Azərbaycan bəstəkarları N.Əliverdibəyov, H.Xanməmmədov, S.Ələsgərov, F.Əmirov, Z.Bağırov və bir sıra Avropa bəstəkarlarının əsərlərini səsləndirdi. "Şüştər" muğamı və Çinarə Heydərovanın tələbəsi Solmaz Rəhimova ilə duetdə ifa etdiyi İ.Albenisin "Asturiya əfsanəsi" əsəri və digər musiqi nömrələri böyük maraq və alqışlarla qarşılandı. Proqramın sonunda isə D.Dadaşovun "Çinarənin sevinci" əsəri səsləndi.

Sonda Çinarə Heydərova "Gənclərə dəstək" layihəsinə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi, konsertin təşkilində dəstəyə görə Azərbaycan Dövlət Akademik Filarmoniyasının rəhbərliyinə, Q.Qarayev adına Dövlət Kamera Orkestrinə, Milli Konservatoriyanın rəhbərliyinə minnətdarlığını ifadə etdi.

**Lalə AZƏRİ**

# Sən nə istədiyini bilirsənmi?

## Və ya gəncliyin səhnəsində "oynanılanlar"dan

Mənəvi-estetik zövq, fərqli sənət, yaradıcılıq tələbatları arasında səhnə, teatr haradadır? Bu gün müasir insanın, xüsusən də sürətli tərəqqiyə meyilli gəncliyin yaradıcılıq sahələrindən tələbləri geniş müzakirə olunmaqdadır. Çünki zaman-zaman "Gələcək gənclərin çiyinləri üzərində qurulur", "Yeni nəsil yeni düşüncə tələb edir" kimi şüarlara söykənir, bir növ, sabahın sığortasına çalışırıq. Amma gəlin görək peşəkar sənət, məsələn, fundamental sənət missiyalı teatr olaraq bu nəsil tamaşaçıya nə veririk? Digər tərəfdən, ümid bəslədiyimiz gəncliyin sənətə meyli, potensial imkanları hansı səviyyədədir? Teatrımızda gənclərin və gəncliyin yeri qaneedicidirmi? Fərqli profilli bir neçə teatr təmsilçisi ilə bunu ayırd etməyə çalışdıq...

İlk olaraq yaradıcılıq düşüncəsində, rejissor kimi təcrübəsində hər zaman bir addım irəliyə tələsən Əməkdar incəsənət xadimi, Yuğ Dövlət Teatrının baş rejissoru Mehriban Ələkbərzadənin fikirlərini öyrəndik. Həmsöhbətim ümumilikdə teatrın özünə konseptual baxışın dəyişməsini vacib sayır: "Teatr incəsənətin canlı, bəlkə də ən təsirli növüdür. Bu, tamaşaçıdan da hazırlıq, intellekt, estetik zövq tələb edir. Ən azından ədəbiyyat, rəsm, musiqi kimi sahələrdən, az da olsa, hazırlıq istəyir. Bunlar olmadan teatr yalnız seyr ediləcək, baxaraq keçiləcək təsirdən başqa bir şey deyil. Teatr səni seyrçiyə yox, hadisənin iştirakçısına çevirir, birbaşa məlumatlandırır. Həyəcanlanmağa, axtarışlar etməyə, bir nəticəyə gəlməyə vadar edir. Və biz baxa-baxa bu hadisənin iştirakçısına çevrilirik. Deməli, aydın görmək, dərk eləmək üçün daha çox mesaj göndərmək imkanımız olur. Amma gəlin ondan başlayaq ki, gənclik teatra nə qədər bağlıdır? Çoxsaylı asan vasitəli incəsənət növləri var ikən daha çətin, sintetik sənətə meyillidirmi bizim gənclər? Buna birmənalı cavab vermək çətindir. Məncə, elə deyil. Anlayıram da. Tərəqqinin, texniki inkişafın, 4-6D formatlı filmlərin, fərqli əyləncələrin, adrenalin həvəskarlarının bu çətin incəsənət növünü sevməsini gözləmək, həm də kütləviliyini istəmək nə qədər realdır? İllah da indi. Bu mənada teatr zövqü bir sıra mənəvi tələbatlardan sonra gəlir. Yəni gənclər kütləviliklə teatra gəlmirlər".

Teatra məhz istəyərək, sevərək gələnləri qazanılan tamaşaçı hesab edən rejissor bunun üçün əsas meyarın istəyə əks reaksiya verməmək olduğunu düşünür. Onun fikrincə, məhz tamaşaçıya fokuslanmaqla, bir növ onun əlindən tutmaqla elə öyrəşdirmək, alışdırmaq mümkündür: "İstədikləri texnoloji tələbləri, fərqli metodları tətbiq etmək yolu ilə də olsa, ilk olaraq gənc dediyimiz o nəsli gətirmək lazımdır. Çünki heç bir sənət teatrın verəcəyi zövq qədər güclü və qalıcı deyil. Bu da böyük mənada onların yüksək olan zövqünə xidmət etməlidir. Gəncləri teatra gətirmək, 60-70-ci illərin axınını bərpa etmək rejissor olaraq hər birimizin ümdə məsələsidir".

Rejissor teatrda, ümumilikdə ölkədəki yaradıcılıq mühitində gənclərin yerinin də qənaətbəxş olduğunu bildirdi: "Bu uzun, əziyyətli, sevgi istəyən teatr yolunda gənclərimiz var və bu çox müsbət, ümidverici haldır. Yuğ teatrı isə elə gənclər üçün, onların aparacaqları eksperimentlər, cərəyanlar üçün ən münbit yerdir. İstənilən ənənəvi, klassik teatrda həyata keçməsi problemli olan bir çox rejissor inikasları bu teatrda çox rahat reallaşa bilər. Çünki bu teatr səhnəsi teatr sənətindəki yeniliklərə daha açıqdır, komplekssizdir".



Bəs klassik musiqi, balet və operalar, fundamental musiqi nümunələri ilə gənclik arasında rabitə necədir?

Akademik Opera və Balet Teatrının mətbuat xidmətinin rəhbəri Şükufə Ağamirzəyeva: "Səhnədə nəsillərin dəyişməsi labüddür. Bu nöqteyi-nəzərdən Opera və Balet Teatrının hər teatr mövsümündə istər vokal və balet truppası, istərsə də xor və simfonik orkestrinin tərkibində yaşlı nəsli tədricən gənclər – Bakı Xoreoqrafiya Akademiyası, Milli Konservatoriya və Bakı Musiqi Akademiyasının istedadlı məzunları əvəz edir. Hər il onlarla gənc balet artisti və opera ifaçısı səhnədə debüt edir və sonradan onların sırasından adlı-sanlı ifaçılar yetişir".

Həmsöhbətim deyir ki, Opera və Balet Teatrının tamaşaçı kontingenti müxtəlif yaşlı insanları əhatə edir. Onlar arasında gənclər də kifayət qədərdir: "Sırf gənclərə hesablanmış tamaşalarımız olmasa da, istər milli, istərsə də klassik opera və balet sənəti nümunələri səhnəyə qoyularkən tamaşaçılar içərisində musiqini, baleti sevən xeyli sayda gəncləri görmək olar. Xüsusən də musiqi və rəqs təmayüllü orta ixtisas və ali məktəblərin tələbələri".

Akademik Milli Dram Teatrının mətbuat katibi Cavid Zeynallı qeyd olunan məsələyə münasibətində repertuar siyasətinin daha önəmli olduğunu bildirir. Onun fikrincə, teatr öz missiyasını icra edir. Tamaşaçı da seçmək hüququndan istifadə edir: "Repertuar siyasəti bütün yaş təbəqələrinə hesablanır və elə belə də olmalıdır. Bizim teatrın səhnəsində istər klassik və müasir dünya, istərsə də Azərbaycan dramaturgiyasından maraqlı səhnə əsərləri var. Ümumiyyətlə, teatrın tamaşaçıları müxtəlif yaş kateqoriyasından olan insanlardır. Əgər teatra ibtidai sinifdə oxuyan şagirdlər, gənclər, ortayaşlı insanlar, ömrün ahıllığını yaşayan şəxslər gəlirsə, deməli, mədəniyyət ocağı bütün yaş kateqoriyası üçün maraqlıdır, cəlbedicidir. Teatrın gənclərin tərbiyəsinin, mənəviyyatının, dünyagörüşünün formalaşmasında böyük rolu var. Biz də çalışırıq ki, bu istiqamətdə öz töhfəmizi verək".

Gənclərin truppada yerinə gəlincə: "Gənc aktyorlar ölkənin ən böyük teatrının səhnəsində görünməyə hər zaman can atır, bunu arzulayırlar. Teatrda gənc və çox istedadlı aktyorlar var, onların yaradıcı imkanlarını təqdim etməsi üçün də bütün imkanlar yaradılıb".

Gənclərin sevimli məkanlarından olan Dövlət Pantomima Teatrının direktoru, Əməkdar artist Elman Rəfiyevin fikrincə, teatrın gənclik potensialı daim olub və bu, belə də qalacaq. Çünki zamanın sürət tempinə uyğunlaşmayan heç bir yaradıcılıq məhsulu yaşaya bilmir: "Xalq artisti Bəxtiyar Xanızadə bu teatrı yaradanda onu gənclərin üzərində qurub. Bu gün də aktyorlarımızın əsas hissəsini gənclik təşkil edir. Ona görə də mən istər tamaşaçı, istərsə də aktyor potensialı məsələsində gənclərlə bağlı nikbinəm. Hazırda teatra tələbat var və hər gənc bura gəlmək istəyir. Elə özümüzü də o gənclərdən ayırmırıq. Gəncləri düşündürən tamaşalar qoyduğumuzdan tamaşaçılarımızın da əksəriyyəti gənclərdir. Sevinirəm ki, gənclərin teatra axını var".

Binası qoyulandan əsas seyrçi kontingenti olaraq gənclərə hədəflənən Dövlət Gənc Tamaşaçılar Teatrının mətbuat katibi, yazıçı Pərvin Nurəliyeva da mövzu ətrafında fikirlərini bölüşdü: "Adından da göründüyü kimi, bu teatr daha çox gənclərin mənəvi-estetik zövqünün formalaşmasına xidmət edir. Eyni zamanda tamaşalarımıza və repertuarımıza nəzər salsaq görərik ki, burada hər zövqdə tamaşaçı, hər yaş nəsli üçün maraqlı əsərlər var. Həm klassikaya, həm də yeni müəlliflərə müraciət olunur. Gənclərin teatrdan gözləntilərinə cavab verməyə, onların mənəvi tələbatlarının ödənilməsinə çalışırıq və bunu teatrımızın sosial şəbəkələrdəki ünvanlarına gələn tamaşaçı rəyləri təsdiqləyir, eləcə də teatrşünasların yazılarında görürük. Əlbəttə, yaradıcı fəaliyyət daima yenilənməlidir və biz də bunun tərəfdarıyıq".

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru Qurban Məsimov bu mənada əsas yükün məhz elə öz teatrlarının üzərinə düşdüyünü deyir. Onun fikrincə, uşaq teatra sevgi ruhunda böyüdükdə o vərdişindən əl çəkə bilmir. Uşaqların teatral zövqünü formalaşdıran ilk ünvan da Kukla teatrıdır: "Düşünürəm ki, uşaqlıqdan aşılanan milli-mənəvi dəyərlərdən bəşəri ideyalar konsepsiyasınadək hər bir təlqinin nüvəsində sevgi durmalıdır. Bu mənada teatra da sevgi formalaşdırılmalıdır. Ən azından yeniyetməlik və gənclik dövrünə keçən teatrsevər nə qədər fərqli və yeni əyləncələrə meyillənsə də, şüuraltında teatrın nə ehtiva etdiyini daim xatırlayacaq. Mütləq yolu oradan da keçəcək. Ona görə də istərdim ki, bütün valideynlər uşaqlarını teatra aparsınlar".

**Həmidə NİZAMİQIZI**

II yazı

*(I yazı qəzetimizin 16 yanvar 2019-cu il tarixli sayında)*

# Musiqili filmlərimiz – səhnədən ekrana

### "Arşın mal alan" – 1965

Ta qədimdən sənət biliciləri əmindirlər: klassik əsərlərin bütün dövrlərdə öz ifaçısı və öz tamaşaçısı olmalıdır. Həqiqətən, klassik əsər ona görə klassik sayılır ki, bütün nəsillər ona maraq göstərir, onu oxuyur, ifa edir və s. Daha çox teatra xas olan bu cəhətə kinematoqrafda da rast gəlmək olur. Dünya kino tarixində bir neçə dəfə ekranlaşdırılmış onlarla film göstərmək olar. Belə ekran əsərləri bir qayda olaraq məşhur romanların, pyeslərin motivləri əsasında çəkilən kinolentlərdir. Təkrar-təkrar ekranlaşdırılan əsərlər cərgəsində "Üç muşketyor", "Anna Karenina", "Romeo və Cülyetta", "Hamlet" və digər məşhur roman və dramların adını çəkmək olar. Musiqili əsərlərin ekran həyatından danışası olsaq, İmre Kalmanın, Yohann Ştrausun, İsaak Dunayevskinin operettaları dünya üzrə siyahıda ilk yerləri tutmuş olar. Bu xüsusda bizim də deməyə sözümüz, göstərməyə filmimiz var: 1945-ci ilin məşhur ekran əsərindən 20 il sonra rejissor Tofiq Tağızadənin ekranlaşdırdığı ikinci "Arşın mal alan" filmi...





1965-ci ildə, Üzeyir Hacıbəylinin anadan olmasının 80 illik yubileyi münasibətilə çəkilmiş "Arşın mal alan" filmi ekranlara çıxdı. Üzeyir bəyin musiqisi kimi onun operettaları əsasında çəkilmiş hər iki filmə əbədi aşiq Azərbaycan ictimaiyyəti bu ekranlaşdırmanı birmənalı qarşılamadı. O vaxtadək rejissorluq fəaliyyəti rəğbətlə qarşılanmış, çox sevilən "Görüş" və "Uzaq sahillərdə" filmlərini çəkmiş Tofiq Tağızadənin yeni ekran işi bir neçə səbəbdən qınaq doğurmuşdu.

Əsas iradlar operettanın süjet xəttinə müdaxilə ilə bağlı idi. Yəni elçi gələn Süleyman bəyin Asyanı görüb bəyənərkən onu Gülçöhrə zənn etdiyindən qızı özü üçün istəmək fikrinə düşərək, tezcə də fikrindən dönməsi, yenə də onun yanlışlıq üzündən Gülçöhrənin əvəzinə Asyanı qaçırması, filmin, operettada olduğu kimi, Əsgərin məşhur "Nalədəndir ney kimi avazeyi eşqim büländ" ariyası əvəzinə Gülçöhrənin üzü görünmədən onun ariyası ilə başlaması irad tutuldu. Quruluşçu rejissorun aktyorları düzgün seçməməsi, onlara obrazın mahiyyətini düzgün anlatmaması kimi iradlar da vardı.

Lakin Tofiq Tağızadə filmdə hadisələri dekorasiya fonundan çıxararaq təbiətin qoynuna aparmış, Göygölü, Qubanı, eləcə də Bakının görməli yerlərini ekrana gətirmişdi. Düzünə qalsa, birinci "Arşın mal alan" filmdən daha çox ekranlaşdırma, ikinci isə daha çox film idi. Əsərə artırılan bəzi səhnələr, o cümlədən arşınmalçı Əsgərin küçədə başına gələnlər, səhvən qız qaçırma səhnəsi kino estetikası və texnikasından daha uğurlu bəhrələnmə nümunələri sayılmalıdır. Süleymanın (Hacımurad Yagizarov) Asyaya gözü düşməsi, eləcə də Soltan bəyin (Ağadadaş Qurbanov) qulluqçu qız Tellini xalça yuyarkən görəndə bir anlığa baxışlarını idarə edə bilməməsi filmin yaradıcılarına irad tutulurdu. Olsun ki, bu iradlara bir qədər haqq qazandırmaq olar. Lakin nəzərə alsaq ki, Üzeyir bəy öz komediyalarında heç vaxt ideal obraz yaratmaq niyyətində olmayıb, obrazların konkret situasiyada belə davranışı anlaşılandır.

Digər yersiz iradlardan biri kimi isə Cahan xala roluna çox cavan Nəcibə Məlikovanın çəkilməsi idi. Qəribədir ki, Münəvvər Kələntərli (1912-1963) birinci "Arşın mal alan"da Cahan xala roluna çəkiləndə 33 (!) yaşında idi, Nəcibə Məlikovanın (1921-1992) Cahan xalası isə 44 yaşında. Ola bilsin ki, filmdəki gənc bəy qızları rollarında çəkilən Xuraman Hacıyeva və Leyla Şıxlinskaya istər zahiri gözəllik, istərsə də öz obrazını daha təbii yaşayıb çatdırmaq baxımından istedadı parlamış təcrübəli aktrisanın kölgəsində qalırdılar deyə, Nəcibə xanım ekranda daha gözəl və daha cavan görünürdü. Bu filmdən sonra uzun illər yaşayıb çalışan Xalq artisti Nəcibə Məlikova sübut edəcəkdi ki, yaş artdıqca da təravətli və cavan görünmək mümkündür.

Aktyor seçiminə gəlincə, Xoreoqrafiya məktəbinin 18 yaşlı şagirdi Leyla Şıxlinskayanın Gülçöhrəsi, həqiqətən də, bir obraz olaraq çox zəif idi. Vəli rolunda çəkilmiş mərhum Tələt Rəhmanov bu filmdən sonrakı bütün rollarında müəyyən qədər Vəlini təkrar edəcəkdi.

### "Qayınana": ekrandan ekrana

1960-70-ci illəri Musiqili Komediya Teatrının (indiki Azərbaycan Dövlət Musiqili Teatrı) qızıl dövrü adlandırmaq olar. Məhz həmin illərdə Sabit Rəhmanın, Şıxəli Qurbanovun, Salam Qədirzadənin, Məhərrəm Əlizadənin, Seyfəddin Dağlının, Əliağa Kürçaylının və Məcid Şamxalovun pyesləri əsasında hazırlanmış bir-birindən bol təbii gülüşlü, məzmunlu tamaşalar anşlaq keçirdi. Adını çəkdiyimiz müəlliflərin yaratdıqları qəhrəmanların düşdükləri situasiyalar o qədər komik, həmin pyeslərə bəstələnən musiqilər o qədər mükəmməl, tamaşaların səhnə interpretasiyası o qədər baxımlı, aktyor ifası elə rəngarəng idi ki, əksər əsərlərdə gülüş hədəfinin melodramatik-məişət çərçivəsindən çıxa bilməməsi, şirin və qərəzsiz yumorun acı gülüşü, amansız satiranı üstələməsi qabarıq hiss olunmurdu.

1957-ci ildə bədii verilişlər sahəsində ilk addımlarını atan Azərbaycan Televiziyasında arada pyes yazan teatr aktyoru Məcid Şamxalovun "Qayınana" pyesi teletamaşa kimi oynanıldı və təbii ki, yaşyarımlıq televiziyanın texniki imkanlarının məhdudluğu baxımından lentə alınmadı. Lakin əsərin sorağı tezliklə azərbaycanlıların standart qayınana-gəlin münasibətinə oxşar mühitdən – Özbəkistan, Türkmənistan, Tacikistan, hətta Rusiyanın Dağıstan və Çeçen-İnquş respublikalarındakı teatrlardan gəldi. 1959-cu ildə isə Bolqarıstandakı bolqar və türk teatrları da bu əsərə müraciət etdilər.

Nəhayət, 1965-ci il dekabrın 28-də Musiqili Komediya Teatrında "Qayınana" tamaşasının premyerası oldu. Artıq təzə ilin (1966) ilk günlərində mətbuatda bu tamaşa haqqında heç də xoş olmayan rəylər yer aldı. Musiqili komediya haqqındakı peşəkar və seyrçi fikirlərində bir ümumi cəhət var idi: bu tamaşanı Nəsibə Zeynalovanın misilsiz ifası, onun öz obrazına səxavətlə bağışladığı ştrixlər, pyesin mətninə artırdığı atmacalar, hətta digər aktyorlarla qurduğu improvizə dialoqlar gözəlləşdirir. Digər qüsurlarına baxmayaraq, libretto müəllifi Məcid Şamxalov, bəstəkarı



Zakir Bağırov olan "Qaynana" musiqili komediyası məhz baş rolun ifaçısının sayəsində uzun illər, Xalq artisti Nəsibə Zeynalova səhhətinə görə səhnədən uzaqlaşanadək teatrın repertuarında qaldı.



Yetmişinci illərin sonunda C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası bu əsərə müraciət etdi. Əslində, bu müraciətin arxasında Azərbaycanın o vaxtkı rəhbəri, ulu öndər Heydər Əliyevin təklifi dururdu. Nəsibə xanımın teatrdakı Cənnət xala rolunu çox bəyənən Heydər Əliyev aktrisanın iştirakı ilə bu tamaşanın ekran variantının da hazırlanmasını məsləhət bilmişdi. Bu film hansı rejissora tapşırılsaydı belə, heç kim yaşının əsl qayınanalıq çağını yaşayan, sağlam, enerjili, kamera önündə işləmək məharətini sübuta yetirmiş, iri plan üçün çox mühüm olan mimik cizgilərlə danışmaq istedadına malik Nəsibə xanımın önünə keçib Cənnət xalanı ondan yaxşı yarada bilməzdi.

"Qayınana" filmi 1978-ci ildə ekrana çıxdı. Filmə bir zaman "O olmasın, bu olsun" komediyasını səhnələşdirməklə Azərbaycan teatrının bir çox "qaymaq"larını bir araya gətirərək onların simasını lentlərdə əbədiləşdirmiş Hüseyn Seyidzadə quruluş vermişdi. Hüseyn Seyidzadə əvvəlki komediyasından, yəni "O olmasın, bu olsun"dan fərqli yol seçdi: musiqili komediyanın yalnız librettosundan istifadə etdi. Filmin ssenari müəllifləri tanınmış Azərbaycan kinorejissoru Əjdər İbrahimov və onun həyat yoldaşı Marqarita Maleyeva idi. Əgər "Ulduz" filmində teatrda eyniadlı tamaşada çıxış edən əksər aktyorlar çəkilmişdisə, "Qayınana" filminə teatrdan təkcə baş rolun ifaçısı Nəsibə Zeynalova Cənnət xala roluna dəvət edilmişdi. Filmin musiqisini görkəmli bəstəkar Tofiq Quliyev bəstələmişdi. Tofiq Quliyevin kinofilmlərə yazdığı digər mahnıları kimi "Qayınana" filminin "Biz mehriban ailəyik" final mahnısı da tezliklə hitə çevrildi və artıq 40 ildir ki, konsert səhnələrində və el şənliklərində səslənir.

Maraqlıdır ki, il ərzində ən azı 7-8 dəfə bütün yerli telekanallarda nümayiş olunan "Qaynana" filmində əksər səhnələrin çəkildiyi Cənnət xalanın evi İçərişəhərdə deyil. Həmin mənzil, hətta binanın girişindən başlayaraq, pillələr, pilləkən meydançası kinostudiyanın pavilyonunda qurulub. Filmin quruluşçu rəssamı Nadir Zeynalovun məharəti sayəsində qədim yaşayış binasındakı hündür tavanlı, enli divarlı, iç-içə otaqlı mənzilin interyeri pavilyonda yaradılıb.

* * *

...Çox təəssüf olsun ki, son qırx ildə bir zamanlar musiqili tamaşa kimi geniş tamaşaçı kütləsini dəfələrlə salona yığan, 500, min, hətta iki min, üç min dəfə oynanılmış musiqili komediyaların motivləri əsasında əsl film estetikası və musiqili film janrının tələblərinə cavab verən bədii ekran əsəri çəkilmir. Əvəzində kinoteatr, sonra da televiziya ekranlarını zəbt edən bəsit süjetli, ucuz gülüşə hesablanmış, peşəkar rejissor işindən və aktyor oyunundan uzaq "kommersiya" filmləri çəkilir. Görünür ki, komediya filmi ərsəyə gətirmək istəyən yaradıcı qüvvələrin hazırkı Azərbaycan Dövlət Musiqili Teatrının nə tarixindən, nə də keçmiş repertuarından xəbəri var. Ya da hansı səbəbdənsə teatr səhnəsindən qaçaq düşmüş həmin komediyaları film olaraq görmək, kinonun imkanlarından bəhrələnməklə əsl komediya filmi çəkmək kinematoqrafçıların və özünü kinematoqrafçı hesab edənlərin ağlına gəlmir.

**P.S.** "Səhnədən ekrana" silsiləsinin son yazısı Azərbaycan kinosundakı ilk və hələlik son film-opera və film-baletə həsr olunacaq.

**Gülcahan MİRMƏMMƏD**

## Xatirə təqvimi — 1-3 fevral

### Azərbaycan

**1 fevral 2004** – Xalq artisti, aktyor, rejissor Lütfi Şahbaz oğlu Məmmədbəyov (6.2.1927 - 2004) vəfat edib. Onlarla televiziya tamaşasına, "İtkin gəlin" çoxseriyalı televiziya filminə quruluş verib. "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Səhər", "Sehrli xalat" və s. filmlərdə çəkilib.

**2 fevral 1891** – İctimai xadim, jurnalist, tərcüməçi Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəyli (1891 - 22.10.1962) anadan olub. Dahi bəstəkar Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin redaktoru olub. Cümhuriyyətin süqutundan sonra Fransada mühacirətdə yaşayıb.

**2 fevral 1912** – Xalq artisti, rejissor Məhərrəm Kazım oğlu Haşımov (1912 - 2.5.1969) anadan olub. Gənc Tamaşaçılar, Rus Dram teatlarında baş rejissor işləyib.

**2 fevral 1932** - Dilçi alim, akademik Ağamusa Ağası oğlu Axundov (1932 – 5.9.2015) Kürdəmirdə doğulub. AMEA-nın Humanitar və ictimai elmlər bölməsinin akademik-katibi işləyib.

**2 fevral 1996** – Azərbaycan gənclərinin ilk ümumrespublika forumu keçirilib. Prezident Heydər Əliyevin imzaladığı fərmanla 1997-ci ildən etibarən 2 fevral ölkəmizdə Gənclər günü kimi qeyd edilir.

**3 fevral 1900** – Xalq artisti, aktyor Səməd Məmməd oğlu Mövləvi (20.2.1900 – 1962) vəfat edib.

**3 fevral 1990** – Görkəmli aktyor Hamlet Xanızadə (5.6.1941 - 1990) vəfat edib. "Yeddi oğul istərəm", "Babək", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Qətl günü" və s. filmlərdə çəkilib. Televiziya və teatr tamaşalarında yaddaqalan obrazlar yaradıb.

### Dünya

**1 fevral 1895** – Amerika kinorejissoru Con Ford (John Ford - John Martin Feeney; 1895-1973) anadan olub. Rejissorlar arasında ən çox (4 dəfə) "Oskar" mükafatına layiq görülüb.

**1 fevral 1999** – Məşhur türk musiqiçisi, bəstəkar Barış Manço (2.1.1943 - 1999) vəfat edib. Türkiyədə rok musiqisinin öncüllərindən biridir. 200-dən çox mahnı yazıb. Hazırladığı televiziya proqramları ilə bir çox ölkələrdə səfərdə olub.

**2 fevral 1595** – Niderland rəssamı, klassisizmin tanınmış nümayəndəsi Yakob van Kampen (Jacob van Campen; 1595-1657) anadan olub.

**2 fevral 1873** – Avstriya bəstəkarı Leo Fall (1873-1925) anadan olub. "Madam Pompadur", "Dollar şahzadəsi" və s. operettaların müəllifidir.

**2 fevral 1882** – İrland yazıçısı və şairi, modernizmin nümayəndəsi Ceyms Coys (James Augustine Aloysius Joyce; 1882-1941) anadan olub.

**2 fevral 1883** – Rus bəstəkarı Mixail Fabianoviç Qnesin (1883-1957) anadan olub. Beş bacısı tanınmış musiqiçi olub. Qnesinlərin adını daşıyan Rusiya Musiqi Akademiyasının əsasını onlar qoyublar.

**3 fevral 1809** – Alman bəstəkarı, dirijor Feliks Mendelson (Jakob Ludwig Felix Mendelssohn Bartholdy; 1809 - 4.11.1847) anadan olub. "Toy" marşının müəllifidir.

**3 fevral 1874** – Amerika yazıçısı Gertruda Stayn (Gertrude Stein; 1874-1946) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 2-5 fevral

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 2 fevral | C.Verdi – "Traviata" (opera) | 19.00 |
| 3 fevral | Q.Qarayev, F.Qarayev - "Qoyya" (balet) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 2 fevral | K.Abdulla – "Bir, iki - bizimki" (A.M.Şərifzadə səhnəsi) | 12.00 |
| | R.Kuni – "Zorən şorgöz" | 19.00 |
| 3 fevral | C.Cabbarlı – "Almaz" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 2 fevral | V.Ulanovski, V.Orlov – "Qızıl cücə" (rus dilində) | 12.00 |
| | Ü.Hacıbəyli – "O olmasın, bu olsun" | 19.00 |
| 3 fevral | E.Sabitoğlu, Y.Şvarts – "Qırmızıpapaq" | 12.00 |
| | İ.Əfəndiyev – "Mənim günahım" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 2 fevral | Azərbaycan xalq nağılı – "Göyçək Fatma" | 14.00 |
| | Y.Abramov, L.Bəyim – "Yarımçıq qalmış..." Gənclər Gününə həsr olunur | 19.00 |
| 3 fevral | Ş. Perro – "Çəkməli pişik" | 14.00 |
| | M. Füzuli – "Leyli və Məcnun" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 2 fevral | V.Neverov – "Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar" | 12.00 |
| | V.Denisov – "Sanset bulvarı" | 19.00 |
| 3 fevral | V.Neverov – "Nağıl qonaqlığında" | 12.00 |
| | Q.Səid – "Əli və Nino" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | |
|---|---|
| 2 fevral | L.Bomon – "Gözəl və Bədheybət" (12.00, 14.00) |
| | Rus xalq nağılı – "Qoğal" (rus dilində) (16.00, 18.00) |
| 3 fevral | M.Seyidzadə – "Cırtdan" (12.00, 14.00) |
| | M.Seyidzadə – "Üç cəsur" (rus dilində) (16.00, 18.00) |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 2 fevral | S.Haqverdiyeva – "Metamorfoza" | 19.00 |
| 3 fevral | R.Akutaqava – "Müəmmalı bir qətlin üç versiyası" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 2 fevral | B.Xanızadə – "Adajio" | 18.00 |
| 3 fevral | B.Xanızadə – "Fəlakət və İnsan" | 14.00 |
| | A.Çexov – "İt gəzdirən xanım" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 2 fevral | "Gəncliyə töhfə" – Gənclər gününə həsr olunmuş musiqi festivalı Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər Ağaverdi Paşayev) | 19.00 |
| 5 fevral | Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (bədii rəhbər Fəxrəddin Kərimov) | 19.00 |

**Filarmoniyanın Kamera və Orqan Musiqisi Zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 2 fevral | "Gəncliyə töhfə" musiqi festivalının bağlanış mərasimi Gənc bəstəkarların əsərlərindən ibarət konsert | 19.00 |

№9 (1594)
1 fevral 2019
www.medeniyyet.az

# Bursada Azərbaycan Cümhuriyyəti şöləni



Türkiyənin Bursa şəhərində "Azərbaycan Cümhuriyyəti şöləni" adlı tədbir düzənlənib. Tədbir Bursa Böyükşəhər Bələdiyyəsi və Azərbaycan Kültür Dərnəyi Bursa şəhər şöbəsinin işbirliyi ilə gerçəkləşdirilib.

Şölən Türkiyə və Azərbaycan himnlərinin oxunması ilə başlanıb. Sonra Azərbaycan Cümhuriyyətinin qurucu rəhbərlərindən bəhs edən qısametrajlı film nümayiş etdirilib.

Filmin nümayişindən sonra Azərbaycan Kültür Dərnəyi Bursa şəhər şöbəsinin rəhbəri Handan Askeran açılış nitqi ilə çıxış edib. O, Məhəmməd Əmin Rəsulzadə başda olmaqla Azərbaycan Cümhuriyyətinin bütün qurucularını hörmətlə anıb, onların istiqlal mücadiləsindən bəhs edib.

Tədbirdə çıxış edən Azərbaycan Milli Məclisinin deputatı Əflatun Amaşov iştirakçıları salamlayaraq tədbirin təşkilatçılarına təşəkkürünü bildirib. Millət vəkili Türk dünyasında ilk parlamentli respublikanın – Azərbaycan Cümhuriyyətinin ortaq tariximizdə önəmli yerə sahib olduğunu vurğulayıb.

Şöləndə Azərbaycan xalq rəqsləri qrupu çıxış edib, Azərbaycan mədəniyyətini əks etdirən ənənəvi geyimlər nümayiş olunub.

Tanınmış ifaçı Arzu Qurbaninin səsləndirdiyi Azərbaycan nəğmələri musiqisevərlərin ruhunu oxşayıb.




Gecənin sonunda tamaşaçılar ifaçıları ayaq üstdə alqışlayıblar.

**Mehparə SULTANOVA**
**Ankara**

# "Qızıl ayı" uğrunda 17 film yarışacaq

## Berlin festivalının münsiflər heyətinə Jülyett Binoş rəhbərlik edəcək

Almaniya paytaxtında Avropanın ən nüfuzlu üç kino yarışması (Kann və Venesiya festivalları ilə birgə) sırasına daxil olan Berlinale festivalı fevralın əsas mədəniyyət hadisələrindən biri olacaq.




Sayca 69-cu Berlin Beynəlxalq Film Festivalı fevralın 7-dən 17-dək davam edəcək. Festival çərçivəsində 74 ölkədən 400 film göstəriləcək. Müsabiqə bölümündə yer alan 23 filmin 17-si baş mükafat – "Qızıl ayı" uğrunda yarışacaq.

Türkiyəli rejissor Emin Alperin "Bacılar" filmi ilə yanaşı, Almaniyada yaşayıb çalışan türk rejissor Fatih Akının "Qızıl əlcək" filmi də "Qızıl ayı"ya namizədlər sırasındadır. Hər iki ekran əsərinin festival çərçivəsində premyerası nəzərdə tutulur.

Festival danimarkalı rejissor Lone Scherfigin "The Kindness of Strangers" filminin nümayişi ilə açıq elan ediləcək.

Berlin kinofestivalı münsiflər heyətinə məşhur fransalı aktrisa Jülyett Binoş sədrlik edəcək. Münsiflər heyətinin tərkibinə, həmçinin kino tənqidçisi Castin Çanq, almaniyalı aktrisa Sandra Hüller, Nyu-York Müasir İncəsənət Muzeyinin Kino bölməsinin baş kuratoru Racendra Roy daxildir. Şekspir Kral Teatrının aktyoru Trudi Stayler və Çili rejissoru Sebastian Lelio da jüridə yer alıb.

# Yusif Eyvazov Paris səhnəsində

Fevralın 7-də azərbaycanlı tenor, Xalq artisti Yusif Eyvazovun Paris Operasının "Gaveau" konsert zalında konserti olacaq. Bu barədə Paris Operasının saytında məlumat verilib.



Konsertdə Yusif Eyvazov Sergey Raxmaninov, Pyotr Çaykovski, Qara Qarayev, Françesko Paolo Tisti, Stanislao Qastaldon, Cüzeppe Verdi, Salvatore Kardilo, Rodolfo Falvo, Ernesto Dö Kurtis, Jorj Bize, Ciakomo Puççini kimi məşhur bəstəkarların əsərlərini səsləndirəcək.

Azərbaycanlı tenoru pianoda Enrico Reggioli müşayiət edəcək.

# Böyük Teatrın muzey inciləri ilk dəfə kataloqda

Rusiya Dövlət Akademik Böyük Teatrının ("Bolşoy Teatr") nəzdində fəaliyyət göstərən muzeyin 100 illiyi münasibətilə buradakı eksponatlar barədə ilk dəfə kataloq nəşr edilib.



"Böyük teatr və muzey. 1918-2018. Rusiya Dövlət Akademik Böyük Teatrının kolleksiyasından" adlı nəşr yaşı 100-dən, hətta 200-dən çox olan muzey eksponatlarının ilk iri kataloqudur. Albomda təqdim olunan əşyaların fotoşəkilləri bu vaxtadək heç bir yerdə dərc edilməyib.

Kitab Böyük Teatrın fondlarının sayına müvafiq olaraq 14 bölmədən ibarətdir. Bu fondlar teatr ayaqqabıları və kostyumları, afişa və proqramlar, əlyazmalar, fotoşəkillər, eskizlər, heykəltəraşlıq əsərlərindən ibarətdir. Tamaşaçılara bu yolla teatr kolleksiyasının müxtəlifliyini görmək fürsəti yaradılacaq.

# Azərbaycanlı dizayner "Men's Health" jurnalında

Kişilər üçün nəzərdə tutulan "Men's Health" beynəlxalq nəşrinin türkcə versiyasının fevral buraxılışı çapdan çıxıb. Bu nömrənin baş qəhrəmanı azərbaycanlı dizayner Rüfət İsmayıldır.

Amerikada çap olunan aylıq "Men's Health" jurnalının lisenziyalı regional versiyaları dünyanın 45 ölkəsində, o cümlədən Türkiyədə nəşr edilir.

Rüfət İsmayıl bu beynəlxalq nəşrin üz qabığında fotosu dərc edilmiş ilk azərbaycanlıdır.

Azərbaycanlı dizaynerin kolleksiyaları moda aləmində nüfuzlu tədbirlər sayılan İtaliya, Dubay, Türkiyə, İran və Beyrut moda həftələrində nümayiş etdirilib, dünya moda sənayesinin mərkəzi sayılan "Pitti Uomo"da göstərilib. Nyu-York moda həftəsində Azərbaycanı ilk dəfə (2018-ci ilin sentyabrında) təmsil edən Rüfət İsmayıl olub.

**Türk dünyası**

# "İlk məhəbbət" fransızlara təqdim ediləcək




Saxa-Yakutiya rejissoru Stepan Burnaşovun "İlk məhəbbət" filmi fevralın 27-də Fransada prokata çıxacaq.

Müxtəlif coğrafiyaların yerli xalqlarının ədəbi və kinematoqrafiya nümunələrini təbliğ edən "Borealia" saytının redaktoru Emili Mey yakut kinosu ilə çoxdan maraqlanır. O, "Kuta", "Özgə həyat", "Z respublikası" filmlərinin rejissoru Stepan Burnaşov ilə bir neçə ildir tanışdır.

Rejissorun "İlk məhəbbət" filmi ilk kadrlarından xanım Meyin xoşuna gəlib. Onun sözlərinə görə, bu film Şimali təkcə adamların ənənəvi milli geyimlərdə gəzib-dolaşdığı soyuq diyar kimi deyil, həm də hər kəs kimi hərarətlə sevməyi bacaran insanların məkanı olaraq göstərməyə imkan verir: "Saxa-Yakut kinosu ilə çoxdan maraqlanıram. Mən təxminən iyirmi ildir ki, buraya gəlir, çəkilmiş filmlərə tamaşa edirəm. Bu dəfə seyr etdiyimiz filmlər arasında "İlk məhəbbət" Fransa tamaşaçısı üçün ən münasib lentdir. Fransa kinosevərlərinin heç ağlına da gəlmir ki, haradasa, uzaq Sibirdə, Uzaq Şərqdə öz milli kinematoqrafı olan xalqlar yaşayır".

Emili Mey deyir ki, qaydalara görə, Fransada film təxminən üç ay prokatda qalır. Prokatdakı uğurlarından asılı olaraq digər qurumların kinoteatrları da onunla maraqlana bilər.

# Bakıda Türkmənistanın xalça, toxuculuq və zərgərlik sərgisi

Türkmənistan və Azərbaycan arasında mədəni-humanitar sahədə əməkdaşlığın, qarşılıqlı mədəni mübadilənin genişləndirilməsi məqsədilə fevralın 15-dən 18-dək Azərbaycan Xalça Muzeyində türkmən xalçalarının, Türkmənistan milli zərgərlik məmulatlarının və toxuculuq sənayesi məhsullarının sərgisi keçiriləcək.



Sərgi Türkmənistan Toxuculuq Sənayesi Nazirliyinin və Azərbaycan Xalça Muzeyinin dəstəyi, Türkmənistanın Bakıdakı səfirliyinin və Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək.

Səfirlikdən verilən məlumata görə, sərgidə yundan toxunmuş, əl işi olan müxtəlif rəngli və naxışlı xovlu xalçalar təqdim ediləcək. Xalçalardakı naxışlar türkmən xalqının tarixini, fəlsəfəsini və dünyabaxışını əks etdirir.

Sərgiyə gələnlər Türkmənistanın yüksəkkeyfiyyətli toxuculuq məhsulları – müxtəlif parça növlərindən yataq dəstləri, trikotaj məmulatları, cins parçadan hazırlanmış məmulatlar, milli keteni, pambarxat və ştapel parça növləri ilə tanış ola biləcəklər. Bir ekspozisiya türkmən zərgərlərin əl işləri üçün ayrılıb.

Sərgi məkanında məxsusi quraşdırılan "Ak oy" adlı türkmən alaçığı tədbirə xüsusi milli ab-hava gətirəcək. Eksponatların bir qismi alaçığın içərisində nümayiş etdiriləcək.

# Adana mənzərələri - rəssamların ilham mənbəyi

Türkiyənin Adana şəhərində Türk dünyası rəssamlarının beynəlxalq pleneri keçirilib. 2017-ci ildə əsası qoyulan və üçüncü dəfə təşkil olunan sənət forumuna 17 ölkədən 70 rəssam qatılıb.

Onlar bir həftə ərzində (21-28 yanvar) hər gün şəhər rəsm qalereyasında çalışaraq Adananın tarixini, mədəniyyətini və mənzərələrini əks etdirən əsərlər yaradıblar. Molbert arxasında çalışmalardan savayı, plenerin proqramına ekskursiyalar da daxil idi.

Hər rəssamın iki əsəri plenerin son günü açılan sərgidə təqdim olunub. Sərgi ilboyu nümayiş etdiriləcək.

# Yeka və Nazərkəni Monte-Karlo alqışladı

Astana sirkinin ekvilibristləri Monte-Karloda keçirilən ənənəvi festivalda xüsusi mükafata layiq görülüblər.



Sirkin artistləri Yeka Konurbayeva və Nazərkə Mərəkəqızı "Siqveydə ekvilibr" orijinal nömrəsilə çıxış ediblər. Bu il sayca 43-cü festivalda 15 ölkəni təmsil edən gənc sirk artistləri müxtəlif janrlarda məharətlərini göstəriblər.

Ötən ilin iyulunda Astananın 20 illiyi şərəfinə keçirilmiş "Asiyanın sədası" sirk sənəti festivalında Yeka ilə Nazərkə duetinin çıxışını görən Avropa Sirk Assosiasiyasının prezidenti Urs Pils qızları şəxsən Monte-Karlo festivalına dəvət etmişdi.

# Gənclər 70 illiyi şərəfinə konsert verəcəklər

İncəsənətə ömür həsr etmiş sənətkarlardan biri də 70 yaşı onsuz qeyd edilən qırğızıstanlı balet ustası, SSRİ Xalq artisti Çolponbek Bazarbayevdir.

Çolponbek Bazarbayev 1949-cu il fevralın 4-də hərbçi ailəsində doğulub. Atasının işi ilə əlaqədar ailə yaşayış yerini tez-tez dəyişdiyi üçün evin böyük oğlu olan Çolponbek internat məktəbdə oxumalı olur. Onu balet sənətinə aparan yol da bu məktəbdən başlayır. 10 yaşlı Çolponbek atasının icazəsi ilə onu seçən tanınmış xoreoqraf-müəllim Qulbara Daniyarovaya qoşulub paytaxt Bişkekə gəlir.

Zəhmətsevərlik, təbiətdən gələn mükəmməl vücud plastikası və xasiyyətindəki inadkarlıq sayəsində Çolponbek Bazarbayev 1967-ci ildə Musiqi-xoreoqrafiya məktəbini əla qiymətlərlə bitirir. Onu dərhal Moskvadakı Xoreoqrafiya məktəbinin təcrübəçi truppasına qəbul edirlər. Lakin atası qəflətən dünyasını dəyişdiyindən 19 yaşlı Çolponbek dörd qardaşını və bacısını böyütməkdə anasına kömək etmək üçün Qırğızıstana qayıtmalı olur.



Gənc artistin solist kimi debütü "Baxçasaray fontanı" baletindəki baş rol ilə başlayır. "Sonalar gölü" baletində Ziqfrid partiyasından sonra Bişkek Opera və Balet Teatrının aparıcı solistinə çevrilir. İyirmi ildən artıq müddətdə milli balet truppasının premyer artisti kimi Çolponbek Bazarbayev gənclərə incəsənəti, klassik musiqini sevdirmək üçün bacarığını əsirgəmirdi.

Səhnə fəaliyyəti ilə yanaşı, 1991-1993 və 2001-2002-ci illərdə Qırğızıstan Opera və Balet Teatrının baş direktoru və bədii rəhbəri vəzifələrində çalışmış, 1987-1995-ci illərdə Qırğızıstan Teatr Xadimləri İttifaqının sədri olmuş, 1993-1996-cı illərdə ölkənin mədəniyyət naziri işləmişdi. Bir neçə dəfə Bakıya səfərə gəlmişdi. Sənətkar 1995-ci ildə "Min-On" (Yaponiya) Beynəlxalq musiqi mükafatına layiq görülmüşdü.

Qırğız xalqının şöhrətli oğlu Çolponbek Bazarbayev 2002-ci ildə avtomobil qəzasında həlak olub.

* * *

Yaşasaydı, fevralın 4-də 70 illik yubileyini onu sevən, vətən incəsənəti qarşısında xidmətlərini unutmayan soydaşları ilə birlikdə qeyd edəcəkdi. Bütün bunların əvəzində həmin axşam A.Maldıbayev adına Opera və Balet Teatrında SSRİ Xalq artisti Çolponbek Bazarbayevin 70 illik yubileyi şərəfinə gənc balet artistlərinin konserti keçiriləcək.

**Hazırladı: GÜLCAHAN**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 376
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.